e-ISSN: 2789-6919

# Elmi Tədqiqat

Beynəlxalq Elmi Jurnal

# Scientific Research

International Scientific Journal

AZƏRBAYCAN RESPUBLİKASI

THE REPUBLIC OF AZERBAIJAN

# ELMİ TƏDQİQAT

**Beynəlxalq Onlayn Elmi Jurnal**
**İmpakt Faktor: 1.172**

**Cild: 4 Sayı: 8**

# SCIENTIFIC RESEARCH

**International Online Scientific Journal**
**Impact Factor: 1.172**

**Volume: 4 Issue: 8**

**Bakı – Baku**
**2024**

Jurnal 01.03.2021-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin reyestrinə
daxil edilmişdir.
Reyestr № 4336

The journal is included in the
register of Press editions of the
Ministry of Justice
of the Republic of Azerbaijan on
01.03.2021.
Registration № 4336

**Redaksiyanın ünvanı**
AZ1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address**
AZ1073, Baku,
Matbuat Avenue, 529,
"Azerbaijan" Publishing House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 99 807 67 68
+994 99 808 67 68
+994 12 510 63 99

**E-mail:**
tedqiqat.1707@aem.az

## Beynəlxalq indekslər / International Indices

**e-ISSN: 2789-6919**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

## Təsisçi və baş redaktor

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
https://orcid.org/0000-0002-5274-0356

## Redaktor

**Assoc. Prof. Dr. Sevinc SADIQOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
sevincsadigova@gmail.com

## Redaktor köməkçiləri

**PhD Almaz BƏDƏLOVA,** Azərbaycan Dillər Universiteti / Azərbaycan
doctorant@live.com

**Könül ABDULLAYEVA,** Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
abdullazadehkonul75@gmail.com

**Şamxal ŞABİYEV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
shebiyev85@mail.ru

## Dillər üzrə redaktorlar

**Assoc. Prof. Dr. Aytac ZEYNALOVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**PhD Türkan İSMAYILLI**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan

## Elmi sahələr üzrə redaktorlar

**Prof. Dr. Şəhla SƏMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Hacı HƏSƏNOV**, AMEA, A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. Yaqut HACIYEVA,** Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. İlkin ƏLİMURADOV**, Azərbaycan İlahiyyat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Könül HƏSƏNOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Cavadxan QASIMOV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Sarvan HÜSEYNOV**, Qərbi Kaspi Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Afərin ABBASOVA**, Qərbi Kaspi Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Xalidə HƏSƏNOVA**, Sumqayıt Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Allahverdi ŞƏRİFOV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan

## REDAKSİYA HEYƏTİ

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

**Prof. Dr. Nərgiz AXUNDOVA**, AMEA, A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Prof.Dr. Cavid QASIMOV,** Van Yüzüncü Yıl Üniversitesi / Türkiyə
**Prof. Dr. Yerden KAJIBEK**, Qazax dili Akademiyası / Qazaxıstan
**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin İqor Sikorski adına Kiyev Politexnik İnstitutu / Ukrayna
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA, Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Nataly MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof. Dr. Yelena ŞİŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Leyla İMAMƏLİYEVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Prof. Dr. Müseyib İLYASOV,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Cihan ÖZDEMİR**, Biləcik Şeyx Edəbali Universiteti / Türkiyə
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Dr. Elza MOLLAYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Təranə HACIYEVA,** Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Prof. Dr. Elçin İBRAHİMOV,** Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Gulsanam NOROVA,** Navoiy Dövlət Pedaqogika İnstitutu / Özbəkistan

**Assoc. Prof. Dr. Urfan HƏSƏNOV,** Gəncə Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Faiq ŞAHBAZLI,** ADNSU-nun nəzdində Sənaye və Texnologiya Kolleci / Azərbaycan
**Assoc. Prof. Dr. Elnurə ƏZİZOVA,** Azərbaycan İlahiyyat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. İradə KƏRİMOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Asiman QULİYEV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxıstan Milli Qadın Pedaqoji Universiteti / Qazaxıstan
**Assoc. Prof. Dr. Həbib MİRZƏYEV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc HƏMZƏYEVA,** Sumqayıt Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey RAGULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Leyla ƏLİYEVA,** Qarabağ Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Vəfa MAHMUDOVA,** AMEA, Arxeologiya və Etnoqrafiya İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Əlöysəd ƏSGƏROV,** Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Əsəd QURBANLI,** AMEA, A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Zabitə TEYMURLU**, Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elza ALIŞOVA**, Girne Amerikan Universiteti / Türkiyə
**Assoc. Prof. Dr. Dürdanə MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Gülnoz SATTOROVA**, ÖEA Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutu / Özbəkistan
**Assoc. Prof. Dr. Rəşad HÜSEYNOV**, Xəzər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Toğrul XƏLİLOV**, AMEA Naxçıvan bölməsi / Azərbaycan
**Assoc. Prof. Dr. İlkin QULUSOY**, Qafqaz Universiteti / Türkiyə
**Assoc. Prof. Dr. İslam HÜSEYNOV**, Dövlət Gömrük Komitəsinin Akademiyası / Azərbaycan
**Assoc. Prof. Dr. Amil ƏSGƏROV,** Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Qərənfil QULİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şəfəq ABDULLAYEVA,** Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Dr. Hacer DOLANBAY**, Muş Alparslan Universiteti / Türkiyə
**PhD Çapay QULİYEV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**PhD İvan PAVLİİ,** Dallas Beynəlxalq Universiteti / ABŞ
**PhD Cavid CƏFƏROV**, Bakı Biznes Universiteti / Azərbaycan
**PhD Tomas SMEDLEY,** Cenevrə Kolleci, Pensilvaniya / ABŞ
**PhD Qəmər İSAYEVA,** Azərbaycan Texniki Universiteti/ Azərbaycan
**PhD İlahə ŞIXƏLİYEVA,** Bakı Dövlət Universiteti / Azərbaycan

## TƏBİƏT ELMLƏRİ

**Prof. Dr. Rafiq ÇOBANOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Onur URAL**, Selcuk Universiteti / Türkiyə
**Prof.Dr. Əkbər AĞAYEV,** Sumqayıt Dövlət Universiteti / Azərbacan
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Duyğu KILIÇ**, Amasya Universiteti / Türkiyə
**Prof. Dr. İlham ŞAHMURADOV**, AMEA, Botanika İnstitutu / Azərbaycan
**Prof. Dr. Mehmet ÜNLÜ**, Marmara Universiteti / Türkiyə
**Prof. Dr. David MENABDE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Dr. Asif MANAFOV**, AMEA, Zoologiya İnstitutu / Azərbaycan
**Prof. Ali AZQANİ**, Tayler Texas Universiteti / ABŞ
**Dr. Xanzoda YULDAŞEVA**, Tibb İşçilərinin Peşə Kvalifikasiyasının İnkişafı Mərkəzi / Özbəkistan
**Assoc. Prof. Dr. Şikar ƏHMƏDOV**, Əkinçilik Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Arif HÜSEYNOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elnarə MEHBALIYEVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Fəxrəddin AĞAYEV,** Əkinçilik Elmi Tədqiqat İnstitutu /Azərbaycan
**Assoc. Prof. Dr. Lalə BUNYATOVA,** Sumqayıt Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Qəzənfər CƏFƏROV**, AR ETN, Kataliz və Qeyri-üzvi kimya İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Sadıq QARAYEV,** ETN, Botanika İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Aliyə RZAYEVA,** AR ETN, Təbii Ehtiyatlar İnstitutu / Azərbaycan
**PhD Fatma HÜSEYNOVA,** AR SN, V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu / Azərbaycan
**PhD Afaq RZAYEVA,** Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Dr. Svetlana QORNOVSKAYA**, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna

## RİYAZİYYAT VƏ MEXANİKA

**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Maarif CƏFƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Allahverdi CƏFƏROV,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Rövşən HÜMBƏTƏLİYEV,** Azərbaycan Dövlət Dəniz Akademiyası / Azərbaycan
**Assoc. Prof. Dr. Ramazan EYYUBOV,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Lalə QOCAYEVA,** Gəncə Dövlət Universiteti / Azərbaycan
**PhD Seymur MEŞAİK**, Gəncə Dövlət Universiteti / Azərbaycan

## TEXNİKA ELMLƏRİ

**Prof. Dr. Fəxrəddin YUSUBOV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Meteoroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Rafiq İBRAHİMOV**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**Assoc. Prof. Dr. Şirin BAXŞƏLİYEVA,** Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**PhD Rafiq AĞAMALIYEV,** Milli Aerokosmik Agentliyi, Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu / Azərbaycan
**PhD Aygün BAYRAMOVA,** Milli Aerokosmik Agentliyi, Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu / Azərbaycan

## Founder and Editor-in-Chief

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
https://orcid.org/0000-0002-5274-0356

## Editor

**Assoc. Prof. Dr. Sevinj SADIGOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
sevincsadigova@gmail.com

## Assistant editors

**PhD Almaz BADALOVA,** Azerbaijan University of Languages / Azerbaijan
doctoral@live.com

**Konul ABDULLAYEVA,** Azerbaijan State Oil and Industry University / Azerbaijan
abdullazadehkonul75@gmail.com

**Shamkhal SHABIYEV**, Azerbaijan Science Center / Azerbaijan
shebiyev85@mail.ru

## Language editors

**Assoc. Prof. Dr. Aytaj ZEYNALOVA**, Azerbaijan University of Languages / Azerbaijan
**PhD Turkan ISMAYILLI**, Nakhchivan State University / Azerbaijan

## Editors in scientific fields

**Prof. Dr. Shahla SAMADOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Haji HASANOV**, ANAS, Institute of History and Ethnology named after A.A.Bakikhanov / Azerbaijan
**Prof. Dr. Yaqut HAJIYEVA,** Azerbaijan Medical University / Azerbaijan
**Assoc. Prof. Dr. Ilkin ALIMURADOV**, Azerbaijan Institute of Theology / Azerbaijan
**Assoc. Prof. Dr. Konul HASANOVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Javadkhan GASIMOV**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Animal Husbandry Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Sarvan HUSEYNOV**, West Caspian University / Azerbaijan
**Assoc. Prof. Dr. Afarin ABBASOVA**, Western Caspian University / Azerbaijan
**Assoc. Prof. Dr. Khalida HASANOVA**, Sumgait State University / Azerbaijan
**Assoc. Prof. Dr. Allahverdi SHARIFOV,** Azerbaijan Technical University / Azerbaijan

## EDITORIAL BOARD

## HUMANITIES AND SOCIAL SCIENCES

**Prof. Dr. Nargiz AKHUNDOVA**, ANAS, Institute of History and Ethnology named after A.A.Bakikhanov / Azerbaijan
**Prof. Dr. Javid GASIMOV,** Van Yuzuncu Yil University / Turkey
**Prof. Dr. Erden KAJIBEK**, Kazakh Language Academy / Kazakhstan
**Prof. Dr. Irina KREYDICH**, National Technical University of Ukraine «Igor Sikorsky Kyiv Polytechnic Institute» / Ukraine
**Prof. Dr. Gazanfar KAZIMOV**, ANAS, Institute of Linguistics named after Nasimi / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Mongolian State University / Mongolia
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Leyla IMAMALIYEVA**, Baku Slavic University / Azerbaijan
**Prof. Dr. Museyib ILYASOV,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Cihan OZDEMIR**, Bilecik Şeykh Edebali University / Turkey
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Elza MOLLAYEVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Tarana HAJIYEVA,** Baku Engineering University / Azerbaijan
**Prof. Dr. Elchin IBRAHIMOV,** Azerbaijan University of Languages / Azerbaijan
**Assoc. Prof. Dr. Gulsanam NOROVA,** Navoi State Pedagogical İnstitute / Uzbekistan
**Assoc. Prof.Dr. Urfan HASANOV,** Ganja State University / Azerbaijan

**Assoc. Prof. Dr. Faig SHAHBAZLI,** Industrial and Technological college under ASOIU / Azerbaijan
**Assoc. Prof. Dr. Elnura AZIZOVA,** Azerbaijan Institute of Theology / Azerbaijan
**Assoc. Prof. Dr. Irada KARIMOVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Asiman GULIYEV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan
**Assoc. Prof. Dr. Habib MIRZAYEV,** Azerbaijan Technical University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinj HAMZAYEVA,** Sumgait State University / Azerbaijan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Leyla ALIYEVA,** Karabakh University / Azerbaijan
**Assoc. Prof. Dr. Vafa MAHMUDOVA,** ANAS, İnstitute of Archeology and Ethnography / Azerbaijan
**Assoc. Prof. Dr. Aloysad ASGAROV,** Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Asad GURBANLI,** ANAS, Institute of History and Ethnology named after A.A.Bakikhanov / Azerbaijan
**Assoc. Prof. Dr. Zabita TEYMURLU,** Baku Engineering University / Azerbaijan
**Assoc. Prof. Dr. Elza ALISHOVA**, Girne American University / Turkey
**Assoc. Prof. Dr. Durdana MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Gulnoz SATTOROVA**, Institute of Uzbek Language, Literature and Folklore of the UAS / Uzbekistan
**Assoc. Prof. Dr. Rashad HUSEYNOV**, Khazar University / Azerbaijan
**Assoc. Prof. Dr. Toghrul KHALILOV**, Nakhchivan branch of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Ilkin GULUSOY**, Kafkas University / Turkey
**Assoc. Prof. Dr. Islam HUSEYNOV**, Academy of the State Customs Committee / Azerbaijan
**Assoc. Prof. Dr. Amil ASKEROV**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Garanfil GULIYEVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shafaq ABDULLAYEVA,** Azerbaijan University of Languages / Azerbaijan
**Dr. Hajer DOLANBAY**, Mush Alparslan University / Turkey
**PhD Chapay QULIYEV**, Nakhchivan State University / Azerbaijan
**PhD Ivan PAVLII,** Dallas International University / USA
**PhD Javid JAFAROV**, Baku Business University / Azerbaijan
**PhD Thomas SMEDLEY,** Geneva College in Beaver Falls, Pennsylvania / USA
**PhD Gamar ISAYEVA,** Azerbaijan Technical University/ Azerbaijan
**PhD Ilaha SHIKHALIYEVA,** Baku State University / Azerbaijan

## NATURAL SCIENCES

**Prof. Dr. Rafiq CHOBANOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey
**Prof. Dr. Akbar AGAYEV,** Sumgait State University / Azerbaijan
**Prof. Dr. Nikolay BRICO**, First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Duyghu KILICH**, Amasya University / Turkey
**Prof. Dr. Ilham SHAHMURADOV**, Institute of Botany of ANAS / Azerbaijan
**Prof. Dr. Mehmet UNLU**, Marmara University / Turkey
**Prof. Dr. David MENABDE**, Kutaisi State University / Georgia
**Dr. Asif MANAFOV**, Institute of Zoology of ANAS / Azerbaijan
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Dr. Khanzoda YULDASHEVA**, Center for Professional Development of Medical Workers / Uzbekistan
**Assoc. Prof. Dr. Shikar AHMADOV**, Agricultural Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Arif HUSEYNOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Elnara MEHBALIYEVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Fakhraddin AGAYEV,** Scientific Research Institute of Agriculture / Azerbaijan
**Assoc. Prof. Dr. Lala BUNYATOVA,** Sumgait State University / Azerbaijan
**Assoc. Prof. Dr. Gazanfar JAFAROV,** Azerbaijan National Academy of Sciences / Azerbaijan
**Assoc. Prof. Dr. Sadiq GARAYEV**, ETN, Institute of Botany / Azerbaijan
**Assoc. Prof. Dr. Aliya RZAYEVA,** Ministry of Science and Education of the Republic of Azerbaijan, Institute of Natural Resources / Azerbaijan
**PhD Fatma HUSEYNOVA,** AR SN, V.Y. Akhundov Scientific-Research Institute of Medical Prophylaxis / Azerbaijan
**PhD Afag RZAYEVA,** Baku Engineering University / Azerbaijan
**Dr. Svetlana GORNOVSKAYA**, Beloserkovsk National Agrarian University / Ukraine

## MATHEMATICS AND MECHANICS

**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Eldar MASIMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Maarif JAFAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Allahverdi JAFAROV,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Rovshan HUMBETALIYEV,** Azerbaijan State Maritime Academy / Azerbaijan
**Assoc. Prof. Dr. Ramazan EYYUBOV,** Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Lala GOJAYEVA,** Ganja State University / Azerbaijan
**PhD Seymur MESHAIK**, Ganja State University / Azerbaijan

## TECHNICAL SCIENCES

**Prof. Dr. Faxraddin YUSUBOV,** Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Rafiq IBRAHIMOV**, Azerbaijan State Oil and Industry University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**Assoc. Prof. Dr. Shirin BAKSHALIYEVA**, Azerbaijan State Oil and Industry University / Azerbaijan
**PhD Rafig AGHAMALIYEV,** National Aerospace Agency, Natural Resources Space Research Institute / Azerbaijan
**PhD Aygun BAYRAMOVA,** National Aerospace Agency, Natural Resources Space Research Institute / Azerbaijan

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

https://doi.org/10.36719/2789-6919/36/9-14

**Amil Əsgərov**
Naxçıvan Dövlət Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
amilesgerov075@gmail.com
https://orcid.org/0000-0001-9286-5017

# Naxçıvan musiqi folklorunun özünəməxsus cəhətləri

**Xülasə**

Naxçıvan – yaşı min illərlə ölçülən çoxəsrlik tarixə, zəngin maddi və mənəvi mədəniyyətə, bəşər tarixinin ilk dövrlərinə və sonrakı yüzilliklərə aid özünəməxsus arxeoloji və etnoqrafik abidələrə malik olan qədim Azərbaycan diyarıdır. Naxçıvan əsrlər boyu özünün zəngin təbii sərvətləri, heyrətamiz, gözəl və saf təbiəti, şəfaverici suları və bitkiləri ilə şöhrət qazanmışdır.

Naxçıvan, eyni zamanda, Qədim və Orta əsrlərdə elmin, mədəniyyətin və incəsənətin bütün sahələri üzrə bəşəriyyətə böyük şəxsiyyətlər, yaradıcı dahilər bəxş etmiş bir məkandır. Azərbaycanın ayrılmaz parçası olan bu qədim diyarın elm, mədəniyyət, ədəbiyyat, incəsənət xadimlərinin yaratdığı qiymətli elmi, mədəni, ədəbi dəyərlər, maddi-mənəvi abidələri, o cümlədən, xalq yaradıcılığı, aşıq və muğam sənəti bütün Şərq mədəniyyətini zənginləşdirmiş və inkişaf etdirmişdir.

Naxçıvanda görkəmli rəssamlar, memarlar və şairlər ilə yanaşı, rəqs sənətinin biliciləri, peşəkar muğam ifaçıları və ustad aşıqlar yaşayıb-yaratmışlar. Naxçıvanda fəaliyyət göstərən ədəbi mühitlərdə, musiqili-poetik məclislərdə, ənənəvi bayram mərasimlərində rəqqaslar, xanəndə və sazəndələr də fəal iştirak etmiş, daim muğamlar, təsniflər, xalq mahnıları səsləndirmişlər.

Naxçıvan çox zəngin folklor mühitinə və ənənələrinə malikdir. Bu diyarın, demək olar, hər bir bölgəsi özünəməxsus folklor janrları, folklor-ifaçılıq ənənələri ilə seçilir. Naxçıvanın qədim yallı janrının ən çox yayıldığı region olması faktı da artıq elmi dəlillərlə təsdiqini tapmışdır.

***Açar sözlər:*** *Azərbaycan, Naxçıvan, musiqi, folklor, xalq yaradıcılığı, janr*

**Amil Asgarov**
Nakhchivan State University
doctor of philosophy in pedagogy
amilesgerov075@gmail.com
https://orcid.org/0000-0001-9286-5017

# Specific Aspects of Nakhchivan Music Folklore

**Abstract**

Nakhchivan is an ancient Azerbaijani land with centuries-old history, rich material and spiritual culture, unique archaeological and ethnographic monuments from the first periods of human history and the following centuries. For centuries, Nakhchivan has gained fame for its rich natural resources, amazing, beautiful and pure nature, healing waters and plants.

At the same time, Nakhchivan is a place that gave humanity great personalities and creative geniuses in all fields of science, culture and art in the Ancient and Middle Ages. Valuable scientific, cultural, literary values, material and spiritual monuments created by science, culture, literature and art figures of this ancient land, which is an inseparable part of Azerbaijan, including folk creativity, ashiq and mugham art, have enriched and developed the entire Eastern culture.

Creative Commons Attribution-NonCommercial 4.0 International (CC BY-NC 4.0) 

From ancient times, especially from the Middle Ages to the present day, along with famous artists, architects and poets, connoisseurs of dance art, professional mugam performers and master lovers have lived and created in Nakhchivan. Dancers, singers and musicians actively participated in literary circles, musical-poetic gatherings, and traditional holiday ceremonies in Nakhchivan.

Nakhchivan has a rich folklore environment and traditions. Almost every region of this country is distinguished by its own folklore genres and folklore-performance traditions. The fact that Nakhchivan is the region where the ancient yalli genre is most widespread has already been confirmed by scientific evidence.

***Keywords:*** *Azerbaijan, Nakhchivan, music, folklore, folk creativity, genre*

## Giriş

Bu bölmədə biz Azərbaycan musiqi folkloru kontekstində Naxçıvan musiqi folklorunun özünəməxsus cəhətlərinin araşdırılması məsələlərini qarşımıza məqsəd qoymuşuq.

Məlum olduğu kimi, folklor xalq yaradıcılığının ən qədim növüdür. Hər bir xalqın tarixi, coğrafiyası, təbiəti, qəhrəmanlığı, ənənələri, həyat arzuları, məişəti və etnoqrafiyası onun folklorunda sadə, aydın və səmimi bir şəkildə öz əksini tapmışdır. Mütəxəssislərin fikrincə, folklor *"xalqın həyat və məişəti, adət və ənənələri ilə qırılmaz tellərlə bağlıdır. Kiçik həcmli lirik şeirlərdən tutmuş nağıl və dastanlarımıza qədər bütün folklor nümunələrimizdə xalqımızın adət və ənənəsinin özünə xas olan incəlikləri rəngarəng boyalarla öz əksini tapmışdır"* (Vəliyev, 1985, 4).

Azərbaycanın zəngin folklor regionlarından biri də Naxçıvandır. Naxçıvan diyarı qədim folklor mədəniyyətinə malikdir. *"Bura ən qədim sivilizasiya mərkəzlərindən biri, etnik-mənəvi xüsusiyyətlərin daha çox qorunduğu, milli mentaliteti müəyyənləşdirmiş keyfiyyətlərin daha çox saxlandığı bir diyardır... Bütün bunlar isə bölgənin folklor mühitində öz təcəssümünü tapıb. Vaxtı ilə geniş coğrafi ərazini əhatə etmiş tarixi Naxçıvanın salnaməsi kimi folklor nümunələri çox əhəmiyyətli qaynaqlardır, bədii sözün tarix qarşısında misilsiz xidmətidir. Bu nümunələr xalqın kağızda yox, ağızda, ürəyinin başında yaratdığı Naxçıvannamədir; bu diyarın söz xəzinəsi, öz xəzinəsidir"* (Cəfərli, Babayev, 2010, 9).

## Tədqiqat

Məlumdur ki, ilk dəfə Azərbaycan xalq musiqisinin janr təsnifatına Üzeyir Hacıbəylinin elmi məqalələrində diqqət yetirilmişdir. Ü.Hacıbəylinin "Azərbaycan musiqi həyatına bir nəzər" məqaləsi bu baxımdan çox əhatəlidir. Bu məqalədə o, Azərbaycan xalq musiqisi janrlarının metro-ritmik xüsusiyyətlərinə görə qruplaşdırılması müddəasını irəli sürmüşdür. O, xalq musiqi janrlarını "bəhrli" və "bəhrsiz" janr qruplarına bölmüşdür (Hacıbəyov, 1985: 186).

Ü.Hacıbəylinin göstərdiyinə görə, bəhrli janr qrupuna xalq mahnıları, rəqslər, rənglər və təsniflər daxildir. Bunlar xalq musiqisinin elə nümunələridir ki, onlar dəqiq metro-ritmik ölçüyə əsaslanır. İkinci qrupa isə Ü.Hacıbəyli "bəhrsiz" – sərbəst metro-ritmə malik muğamları aid edir. Bunlardan əlavə, o, "Heyratı", "Arazbarı", "Qarabağ şikəstəsi" və s. bu kimi musiqi nümunələrinin adını çəkərək, onların bəhrli və bəhrsiz janrlardan fərqləndiyini qeyd edir, lakin həmin musiqi nümunələrinin hansı qrupa aid olduğunu açıqlamır.

Ü.Hacıbəylinin mülahizələrinə əsaslanan M.İsmayılov xalq musiqi nümunələrinin janr bölgüsündə metro-ritmik xüsusiyyətləri əsas götürür. O, "bəhrli" və "bəhrsiz" janr qrupları ilə yanaşı, daha bir qrupun da mövcudluğunu qeyd edir və bunu qarışıq bəhrli qrup adlandırır. Çünki bu qrupa aid edilən musiqi nümunələri – "Qarabağ şikəstəsi", "Heyratı" və s. özündə hər iki qrupun xüsusiyyətlərini qovuşdurur. Beləliklə, M.İsmayılov Azərbaycan xalq musiqisini üç janr qrupuna bölmüşdür və bu bölgü daxilində musiqi janrlarının şərhini vermişdir.

Qeyd etmək lazımdır ki, Ü.Hacıbəylinin və M.İsmayılovun təsnifatında musiqi dilinin xüsusiyyətləri, bilavasitə musiqinin metroritmik əsası önə çəkilir. Eyni zamanda, xalq mahnılarının təsnifatında onların məzmunu da mühüm əhəmiyyətə malikdir. Tədqiqatlarda bu cəhətlərin daha çox önə çıxdığını qeyd etməliyik.

R.İsmayılzadənin "Azərbaycan xalq mahnıları" adlanan tədqiqatında xalq mahnılarının təsnifatı verilmişdir. *"Bədii-estetik təsir gücünə və tez qavranılmasına görə xalq mahnılarını ən geniş yayılmış"* janr kimi təqdim edən müəllif yazır: *"...bu musiqi irsi müxtəlif tarixi şəraitdə öz şəklini*

*bu və ya digər dərəcədə dəyişmiş, formalaşmış və inkişaf etmişdir"* (Azərbaycan xalq musiqisi. Oçerkləri, 1981: 52). O, "mahnı" sözünün mənşəyini açıqlayaraq yazır: *"Bu söz dilimizdə saya, söy, nağmə, hava, şərqi kimi ifadə olunmuşdur. Mahnılarda Azərbaycan xalqının əməyə, təbiətə sevgi, ailə və uşağa münasibəti, ənənə və adətləri, istək və mehribanlığı, igidlik və qəhrəmanlığı tərənnüm olunur"* (Azərbaycan xalq musiqisi. Oçerklər, 1981: 52).

R.İsmayılzadə xalq mahnılarını mövzusuna görə: *"I. Əmək mahnıları; II. Mərasim mahnıları; III. Məişət mahnıları; IV. Tarixi mahnılar"* kimi qruplara bölmüşdür.

Tədqiqatçı hər bir janr qrupu daxilində də bir neçə növün olduğunu göstərmiş və hər bir növün xüsusiyyətlərini açıqlamışdır. Bu zaman mahnıların məzmunu, xarakteri əsas götürülmüşdür.

Musiqişünaslıqda Bayram Hüseynlinin tədqiqatlarında öz əksini tapmış rəqs musiqisinin təsnifatı da diqqətəlayiqdir. B.Hüseynli "Azərbaycan xalq rəqs musiqisinin klassifikasiyası" məqaləsində xalq rəqs musiqisinin təsnifatına üç mövqedən yanaşır: *"1. Rəqslərin musiqi müşayiətinə görə; 2. Rəqqasların cinsinə və sayına görə; 3. Rəqslərin janr növlərinə görə"* (Hüseynli, 1968: 68).

Müəllif xalq rəqslərinin müşayiətinin – vokal, vokal-instrumental, instrumental şəkildə olduğunu qeyd edir. Vokal müşayiətli rəqslər yaranma tarixinə görə ən qədim rəqslərdir. Vokal-instrumental müşayiətli rəqslər və instrumental rəqslər isə daha sonrakı dövrlərə aiddir. Xalq rəqsləri rəqqasların cinsinə görə kişi və qadın rəqslərinə, sayına görə: fərdi (solo), qoşa (duet), dəstə (qrup) və kütləvi (xorovod) rəqslərə bölünür (Hüseynli, 1968: 68).

B.Hüseynli tərəfindən xalq rəqs musiqisində bu janrlar qeyd olunur: *"1. Ənənəvi rəqslər; 2. Məişət rəqsləri; 3. Zəhmət rəqsləri; 4. Qəhrəmani, hərbi və idman oyunları, rəqsləri; 5. Yallı (xorovod) oyun-rəqsləri; 6. Müxtəlif mövzulu xalq rəqsləri"* (Hüseynli, 1968: 69). Tədqiqatçı oyun-rəqs, mahnı-rəqs kimi terminlərdən istifadə edir ki, bu da rəqslərin janr və ifaçılıq xüsusiyyətlərinin dolğun xarakterizə olunması ilə bağlıdır.

Xalq mahnı və rəqslərinin bu təsnifatına uyğun olaraq, Naxçıvan musiqi folklorunu da səciyyələndirə bilərik. Belə ki Azərbaycan şifahi ənənəli musiqi irsi daxilində bölgələr üzrə musiqi folklorunda məzmun və janr xüsusiyyətləri baxımından oxşar cəhətlər vardır. Bununla yanaşı, hər bir regionun özünəməxsus adət-ənənələrindən, danışıq dili ilə bağlı ləhcələrdən, düşüncə və temperamentdən irəli gələn oxuma tərzi, musiqi ifaçılığı və rəqs xüsusiyyətləri özünü göstərir. Bu baxımdan Naxçıvanda ümumazərbaycan musiqi folkloruna xas olan xalq musiqisi janrlarının mövcud olması ilə yanaşı, özünəməxsus xüsusiyyətlər də qabarıq surətdə özünü göstərir.

Naxçıvanın musiqi folklorundan danışanda, ilk növbədə yada düşən Naxçıvan yallıları olur. Doğrudan da, Naxçıvan yallıları Azərbaycan xalqının əsl musiqi xəzinəsidir. Təsadüfi deyil ki, yallılar öz janr zənginliyinə görə təkcə musiqişünaslar tərəfindən deyil, filoloqlar, folklorşünaslar, etnoqraflar, dilçilər tərəfindən də ciddi araşdırılmışdır.

Naxçıvan musiqi folklorunda Azərbaycan ənənəvi musiqisinin müxtəlif janrlarına rast gəlinir. Xüsusilə haxışta, gülümey, yallıbaşı mahnıları qeyd olunmalıdır ki, bunlar bilavasitə Naxçıvanın mərasim mədəniyyəti ilə bağlı mahnı və rəqslər olub, Novruz bayramı və toy mərasimində geniş surətdə tətbiq edilir.

Naxçıvanda qədim mövsüm mərasimlərində "Çömçəxatın", "Yağ yağışım", "Xırman nəğməsi", "Sayaçı nəğməsi" kimi mövsüm mərasim nəğmələri xalq tərəfindən Tanrıdan bol məhsul diləyi ilə icra olunmuşdur. Baharın gəlişinə həsr olunmuş "Kos-kosa", təbiətin oyanmasını təmsil edən "Səməni", "Xıdır İlyas" və s. mərasim rəqsləri Naxçıvan musiqi folklorunda müəyyən yer tutur.

K.Həsənov Naxçıvanda Novruz bayramı mərasiminin özünəməxsus xüsusiyyətlərindən birini belə qeyd edir: *"Naxçıvanda hər qonaq özü ilə səməni gətirər, onu stolun üstünə qoyar və "Səməni" mahnısını oxuya-oxuya onun başına dolanar, bir ayaq üstündə rəqs edərdilər. Sonra da mahnılar səslənər, deyib-gülərdilər"* (Həsənov, 1983: 10).

"Səməni" Naxçıvanda rast gəlinən ən qədim rəqslərdən biri olub, daha çox baharın gəlməsinə həsr edilmiş ənənəvi şənliklərdə qadınlar və qızlar tərəfindən ifa olunur. Rəqsin ifası kifayət dərəcədə təsirlidir, sözlərlə müşayiət olunan bu rəqs Azərbaycanın digər bölgələrində də özünü göstərir. "Səməni" ənənəsi çox vaxt səməni, şirniyyat, plov gətirilməsi və mahnılı, rəqsli yığcam bayram şənliyi dairəsindən kənara çıxmır.

Naxçıvan folklor mühitində hələ qədim zamanlardan mövcud olan və bu gün də bölgənin əhalisi tərəfindən yaşadılan, icra olunan mərasimlər – “Kosa-kosa”, “Xanbəzəmə”, “Can gülüm”, “Üzərliksalma”, “Anayla qız”, “Çobanla qız”, “Gəlinlə qayınana”, “Duvaqqapma”, “Urmu qızı” mahnı-dialoqları, o cümlədən “Bənövşə” və “Bir quşum var bu boyda” oyun-mahnı və rəqsləri maraqlı nümunələrdir və Azərbaycan mərasim mədəniyyətində özünəməxsus yer tutur. Bunlardan bəzisi Novruz bayramında, bir sıra nümunələr isə toy və xınayaxdı mərasimlərində ifa olunur.

Azərbaycan musiqi folklorunda toy adət-ənənələrinin müxtəlif psixoloji və xarakter anlarına – xınayaxdı, bəyin tərifi, gəlinin yola salınması və s. həsr olunan mahnı və rəqslər xalq arasında çox sevilir və tətbiq olunur. Azərbaycan musiqi folklorunda toy mərasimi ilə bağlı olan “Xınayaxdı havası”, “Yol açın, gəlin gəlir”, “Xoş gəldin” mahnıları, “Vağzalı”, “Mirzəyi” və s. rəqslər, demək olar ki, bütün bölgələrdə geniş yayılmışdır. Bununla yanaşı, “Haxışta”, “Toy rəqsi”, “Asma-kəsmə”, “Gülməyi” (“Gülümeyi”, “A gülüm hey”) kimi nümunələri sırf Naxçıvan bölgəsinin musiqi folklorunun məhsulu kimi qeyd etmək lazımdır. Bu nümunələrin Naxçıvanda və ətraf bölgələrdə yaşayan naxçıvanlılar tərəfindən bayram və toy mərasimlərində ifa olunması, onların Naxçıvan musiqi folklorundakı yerini təsbit edir.

Azərbaycan xalq yaradıcılığında yalnız Naxçıvan diyarının mərasim adət-ənənələrinə məxsus olan folklor janrlarından biri “Haxışta”dır. Naxçıvan musiqi folklorunda “Haxışta” janrının ifaçılıq xüsusiyyətləri haqqında ayrıca danışmaq lazımdır. Təəssüf ki, yallılar ilə müqayisədə bu janr musiqişünaslar tərəfindən, demək olar öyrənilməmiş və ya bu qədim musiqi-folklor janrına çox az diqqət göstərilmişdir.

İlk əvvəl qeyd edək ki, “haxışta” sözünün etimologiyası haqqında filoloqlar tərəfindən müəyyən fikirlər irəli sürülmüşdür. Bu sözün mənasını və janrın mənşəyini mifoloji inanclarla əlaqələndirirlər. “Haxışta” sözünü “ha xışta” (xışlamaq) kimi mənalandırmaq, janrın mənşəyini xışla, torpaq şumu ilə bağlamaq elmi baxımdan daha inandırıcı və məntiqlidir. Belə ki əkinçiliklə məşğul olan qədim xalqlarda məhsul verən torpaq müqəddəs sayılmışdır. “Haxışta” janrının da təşəkkül tapması əkinçilik ilə bağlı olmuşdur. Lakin zaman keçdikcə, cəmiyyətin inkişafı ilə əlaqədar torpaqla bağlı əski inancların və adətlərin həyatı tərk etməsi nəticəsində Naxçıvanın əhalisi əkin mahnılarının sözlərini dəyişərək onun melodiyasını müvafiq mətnlər ilə toy mərasimlərində və Novruz bayramında oxumuşlar. Bununla da “haxışda” sözü bayatılarla oxunan Novruz mərasim mahnılarının, toy nəğmələrinin nəqarətinə çevrilmişdir. Həmin mahnılar da öz adını bu nəqarətdən götürərək, xalq arasında “Haxışta” adı ilə yayılmış, nəsillərdən nəsillərə toy mahnısı kimi ötürülmüşdür. Beləliklə, Naxçıvan musiqi folklorunda “Haxışta” janrının yaranması baş vermişdir.

Haxıştalar Naxçıvan bölgələrinin toy mərasimlərində ifa olunur. Bu nümunələr bir qayda olaraq, toyun iki mərhələsində oxunur: 1. Xınayaxdı mərasimində; 2. Gəlin bəy evinə köçəndə.

Bu janrın ifa xüsusiyyətlərindən daha biri onun rəqslə birlikdə oxunmasıdır. İfaçıların istəyindən asılı olaraq, haxıştalar oynaq vəznə uyğun rəqs hərəkətləri ilə birlikdə oxunmuşdur. “Haxışta”da rəqs və mahnının vəhdət şəklində icrası mərasimə şən əhvali-ruhiyyə gətirmişdir. Belə ifa xüsusiyyəti haxıştalara rəqs-mahnı janrı kimi yanaşmağa imkan verir.

Naxçıvanda geniş yayılmış musiqi folkloru janrlarından biri də “Gülümeyi”dir. Adətən toy və el şənliklərində ifa olunan qədim mahnı-oyundur. Dil yallısı oyunu da adlanır. “Gülümeyi” (“Gülməyi” və ya “A gülüm hey”) mahnı-rəqsini qız-gəlinlər xınayaxdı mərasimində oxuyub-oynayırlar. Mahnının hər bəndi dörd misralı və bütün misralarının sonunda “gülümey” sözü təkrarlanır.

Bu rəqsin “Ay gülüm ey” adlı variantının not yazısına Ə.İsazadənin və N.Məmmədovun “Azərbaycan xalq mahnıları və oyun havaları” məcmuəsində rast gəlirik (İsazadə, 1984: 14).

Bunlarla yanaşı, Naxçıvan musiqi folklorunda geniş yayılmış yer adı ilə bağlı rəqslərdən “Qızlar bulağı”, “Asta Qarabağı”, “Uzundərə” kimi rəqsləri qeyd etmək olar. Bu rəqslər haqqında K.Həsənovun məlumatı maraqlı faktlarla zəngindir.

“Qızlar bulağı” rəqsi Naxçıvan şəhərində yerləşən bulaq adı ilə bağlıdır. Qədim zamanlardan qızlar bu bulağın başında yığışaraq oxuyub-oynamışlar. “Qızlar bulağı” rəqsi də bununla bağlıdır, hazırda Naxçıvan ərazisində geniş yayılmışdır. Hətta Azərbaycan musiqiçiləri bu rəqsin bir sıra

variantları yaratmışlar, məsələn, qarmonçalan Əhəd Əliyevin yaratdığı "On dörd nömrə" rəqs melodiyası bu rəqsin bir variantını təşkil edir.

"Asta Qarabağı" rəqsinin adı Qarabağla əlaqədar olaraq, bu bölgədə yarandığına işarə etsə də, lakin bu rəqs Naxçıvanda və Şahbuzda "Qarabağı" adı ilə geniş yayılmışdır. Əsasən ahıl kişilər və qadınlar tərəfindən oynanılır. Rəqs aram tempdə, sabit hərəkətlərlə ifa olunur.

K.Həsənovun "Qədim Azərbaycan xalq rəqsləri" kitabında "Uzundərə" rəqsi haqqında maraqlı məlumatlara rast gəlirik. "Uzundərə" rəqsini *"cazibəli, zərif və lirik ifadəli"* bir rəqs kimi xarakterizə edən müəllif bu qədim rəqsin adının meydana gəlməsini də açıqlayır, Qarabağda, Ağdamla Göytəpə kəndi arasında "Uzundərə" adlanan bir dərənin adı ilə bağlı olduğunu bildirir (Həsənov, 1983: 45). Müəllif bu rəqsin yaranması ilə bağlı xalq arasında mövcud rəvayətlər haqqında da məlumat vermişdir. Bir rəvayətə görə, "Uzundərə" köçəri tərəkəmə qəbiləsinin düşərgəsi olmuşdur, onların rəqslərinin biri "Uzundərə" adlandırılıb. Başqa bir rəvayətə görə, "Uzundərə" bu yerdən gəlin apararkən, bəyin qohumlarından olan qadınların oynadıqları rəqslərdən biri olmuşdur.

Naxçıvan musiqi folklorunda lirik mahnılar böyük yer tutur. Tədqiqatçılar "Apardı sellər Saranı", "Sarı gəlin" lirik xalq mahnılarının Naxçıvan mühitində yarandığını ehtimal edirlər və bununla bağlı elmi ədəbiyyatda bir sıra fikirlər diqqətəlayiqdir.

"Apardı sellər" mahnısının yaranma tarixi ilə bağlı mənbələrə əsasən, bu mahnının müəllifi Azərbaycanın məşhur aşıqlarından biri, Xan Çoban təxəllüsü ilə məşhur olan XIX əsr Cənubi Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi Əbülqasim Nəbati olmuşdur (8). Lakin bu mahnı ilə bağlı naxçıvanlı alimlər tərəfindən aparılan və mahnının Naxçıvanla bağlılığını sübut edən bir sıra araşdırmaları da qeyd etmək istərdik. Məhsəti İsmayılın "Naxçıvan əfsanələri" (Naxçıvan, 2008) kitabında qeyd olunur ki, *"Naxçıvandan toplanmış folklor nümunələrində çaylarla bağlı əfsanə və inanclar bölgənin coğrafi arealını təsvir etməklə yanaşı, xalqın istək və arzularını, hisslərini, düşüncə tərzini də əks etdirir. Naxçıvanda şifahi sözün ünvanlandığı iki çay - Araz və Arpa çayları xüsusilə məşhurdur. Arpa çayı öz mənbəyini Qərbi Azərbaycandan götürür. Bu çayların vadisində yaşayan insanlar yaratdığı Arpa çayı əfsanələri – Sara əfsanələri ümumbəşəri düşüncə və hissləri fövqəladə dərəcədə gözəl, bədii ruhla ifadə etmişdir"* (3).

Daha sonra müəllif yazır: *"Şərur rayonunun çay vadisi kəndlərindən apardığımız toplamalar zamanı yerli sakinlərin əfsanəni sanki dünən baş vermiş bir hadisə kimi söyləmələri də xeyli maraq doğurur"* (3). Bu baxımdan həmin əfsanələrin dərin mifoloji məzmuna malik olduğunu qeyd etmək olar.

Akademik İsa Həbibbəyli "Gedin deyin Xançobana" məqaləsində Sara əfsanəsində maraqlı tarixi-toponimik faktı qeyd etmişdir. Bu əfsanənin *"Şərur rayonunda, Arpa çayına yaxın ərazilərdə yerləşən Muğanlı, Muğancıq, Müslüm Muğancıq, Mehrab kəndlərinin adları"* (Həbibov, 1975) ilə bağlı olması tədqiqatçı tərəfindən vurğulanmışdır.

## Nəticə

Göründüyü kimi, Azərbaycan musiqi folklorunun mühüm bir hissəsini təşkil edən Naxçıvan musiqi folklorunda xalq musiqisinin bütün janrları əhatə olunmuşdur. Eyni zamanda, Naxçıvan bölgəsinə xas olan musiqi nümunələri meydana gəlmiş və müasir dövrdə də xalq arasında və peşəkar musiqi kollektivləri tərəfindən yaşadılmaqdadır.

## Ədəbiyyat

1. *Apardı sellər Saranı*. https://az.wikipedia.org/wiki/Apard%C4%B1_sell%C9%99r_Saran%C4%B1
2. *Azərbaycan xalq musiqisi. Oçerklər*. (1981). Elm.
3. Cəfərli, M. (tərtibçi). (2010). *Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru.* I cild. Əcəmi.
4. Hacıbəyov, Ü. (1985). *Seçilmiş əsərləri.* Yazıçı.
5. Həsənov, K. (1983). *Qədim Azərbaycan xalq rəqsləri.* İşıq.
6. Hüseynli, B. (1968). *Azərbaycan xalq rəqs musiqisinin klassifikasiyası. Azərbaycan incəsənəti.* XII c. Elm.

7. İsazadə, Ə. (1984). *Azərbaycan xalq mahnıları və oyun havaları*. II. Azərnəşr.
8. İsmayıl, M. (2008). *Naxçıvan əfsanələri*. https://kitabxana.nmi.edu.az/wp-content/uploads/2020/09/M%C9%99hs%C9%99ti-Ismayil-Naxcivan-%C9%99fsan%C9%99l%C9%99ri.pdf
9. Vəliyev, V. (1985). *Azərbaycan folkloru.* Maarif.

Daxil oldu: 11.06.2024
Baxışa göndərildi: 26.07.2024
Təsdiq edildi: 19.08.2024
Çap olundu: 30.08.2024

https://doi.org/10.36719/2789-6919/36/15-19

**Şöhrət Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
sohret.nesirova24@gmail.com
https://orcid.org/0009-0006-6553-6385

# Əli Səmədovun uşaq nağıllarının mətn informasiyası

**Xülasə**

Azərbaycan uşaq nəsrinin inkişafında Əli Səmədovun ayrıca yeri vardır. Ümumiyyətlə, iyirminci əsrin 60-cı illəri ədəbi-nəzəri fikirdə xüsusi mərhələ olaraq səciyyələnir. Bunun isə əsaslı səbəbləri vardır və təkcə Azərbaycan miqyasında olan canlanma ilə şərtlənmir. Daha çox sovetlər məkanında, eləcə də Avropa mühitində baş verən oyanışlara, hərəkətliliyə bağlanır. “Altmışıncı illər nəsri” və yaxud da “altmışıncı illər nəsli” adı ilə səciyyələnən bu dövr bütün parametrlərdə eyni təsəvvürü və məzmunu canlandırır. Poeziyanın, nəsrin, dramaturgiyanın, publisistikanın, ədəbi tənqidin bu mərhələdəki özünəməxsusluq mənzərəsi milli düşüncənin, arxaik yaddaşın bir tendensiya olaraq hərəkətliliyinə, oyanışına bağlanması ilə spesifikləşir. Uşaq ədəbiyyatı da bu prosesdə özünəməxsus düşüncə modellərinin, həyatı dərk və təqdim üsullarının diqqətçəkici tərəfləri ilə səciyyələnir.

Yaşlı nəslin nümayəndələri, eləcə də 60-cı illərdə böyük ədəbiyyata qədəm qoyan sənətkarların mühüm bir qismi uşaq ədəbiyyatı yaratmaq işində fəal rol oynadılar. M.Rzaquluzadə, M.Seyidzadə, M.Dilbazi, Ə.Cəmil, N.Rəfibəyli, R.Rza, S.Məmmədzadə, Y.Həsənbəy, V.Nəsib, C.Məmmədov, Ə.Kərim, C.Novruz, F.Sadıq, T.Mütəllibov, M.Namaz, A.Kəmərli, M.Əliyev və s. sənətkarların ədəbi-mədəni prosesdəki fəaliyyəti bütün aspektləri ilə zənginləşməyə köklənirdi. Bütün bunların ümumi ahəngi uşaq ədəbiyyatı yaratmaq işində gərəkli işlərin görülməsini diqqət önünə gətirir. Ə.Səmədov da uşaq ədəbiyyatına gələn istedadlı sənətkarlar içərisində öz ruhu, düşüncəsi ilə seçilən şəxsiyyətlərdən olmuşdur.

***Açar sözlər**: Əli Səmədov, uşaq ədəbiyyatı, nağıl, əfsanə, rəvayət, hekayə, uşaq folkloru*

**Shohrat Mammadova**
Azerbaijan State Pedagogical University
doctor of philosophy in philology
sohret.nesirova24@gmail.com
https://orcid.org/0009-0006-6553-6385

# Text Information of Ali Samadov's Children's Fairy Tales

**Abstract**

Ali Samadov has a special place in the development of Azerbaijani children's prose. In general, the 60s of the twentieth century are characterized as a special stage in literary and theoretical thought. There are good reasons for this and it is not only caused by the revival in Azerbaijan. It is mostly connected to the awakenings and mobility that took place in the Soviet space, as well as in the European environment. This period, which is characterized by the name "prose of the sixties" or "generation of the sixties", revives the same imagination and content in all parameters. The peculiarity of poetry, prose, dramaturgy, publicism, and literary criticism at this stage is specified by the connection to the mobility and awakening of national thought, archaic memory as a trend. In this process, children's literature is also characterized by the remarkable aspects of unique thinking models, ways of understanding and presenting life.

Representatives of the older generation, as well as an important part of the artists who entered great literature in the 60s, played an active role in creating airplane literature. M. Rzaguluzade, M.

Creative Commons Attribution-NonCommercial 4.0 International (CC BY-NC 4.0) 

Seyidzade, M. Dilbazi, A. Jamil, N. Rafibeyli, R. Rza, S. Mammadzade, Y. Hasanbey, V. Nasib, J. Mammadov, A. Karim, J. Nowruz, F. Sadig, T. Mutallibov, M. Namaz, A. Kemarli, M. Aliyev, etc. the activity of artists in the literary and cultural process was rooted in enrichment in all its aspects. The general harmony of all this brings to the fore the necessary work to be done in the work of creating children's literature. A. Samadov was one of the talented artists who came to children's literature, who stood out for his spirit and thought.

***Keywords:*** *Ali Samadov, children's literature, fairy tales, legends, narratives, stories, children's folklore*

## Giriş

Çeşidli mövzularda yazdığı əsərlərlə uşaq dünyasını fəth edən, zəngin ədəbiyyata öz layiqli töhfələrini verən Ə.Səmədov keçən əsrin 60-cı illərindən sonrakı prosesdə daha çox diqqət önünə gələn yaradıcı simalardandır. "Ayının armud ağacı", "Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş", "Çox fikirləşən ayı", "Ağanəzər", "İki qardaş", "Tülkü tülkünü buyurdu, tülkü də quyruğunu", "Tülkünün tövbəsi", "Qarlı zirvə", "Xəsis kişi", "Qəssab və nökər", "Bülbül və qarğa", "Bir parça torpaq" və s. nağılları öz qaynağını xalq ədəbiyyatından almaqla orijinal təsəvvür sərgiləyir. Təxminən qırx illik yaradıcılıq fəaliyyətinin ana axarını müəyyənləşdirən uşaq ədəbiyyatı örnəkləri onu uşaqların sevimlisinə çevirmişdir. Atalar sözü, məsəl, tapmaca, yanıltmac, layla, oxşama, rəvayət, əfsanə, təmsil, uşaq oyunları, xalq mərasimləri, meydan tamaşaları və s. səviyyəsində yaranmış xalq örnəklərindən yüksək ustalıqla istifadə edən ədib folklordan gələn süjet və motivləri yeni üslub və axarda topluma təqdim etmişdir.

## Tədqiqat

**Folklordan bəhrələnmə üsulları.** Əli Səmədov yaradıcılığının mahiyyətində və polifonik məzmununda xalq yaradıcılığından gələn zənginlikdən uğurla yararlanma dayanır. Metatekstuallıq səviyyəsində mükəmməl bir təsəvvürü formalaşdıran bu nümunələr bazis səviyyəsində etnokulturoloji sistemin taktik və strateji hədəflərində nələrin dayandığını diqqət önünə gətirir. "Uşaqların mənəvi aləmini zənginləşdirmək, onların estetik tərbiyəsi və humanist ideyalar ruhunda böyüməsi qayğısına qalmaq, müasir cəmiyyətin quruculuğunda fəal iştirak etməyə hazırlamaq kimi xeyirxah və nəcib vəzifə məhz uşaq ədəbiyyatının da öhdəsinə düşür.

Uşaq ədəbiyyatı yeniyetmələrin dünyagörüşünün inkişafında, onların maraq dairəsinin genişlənməsində böyük rol oynayır. Bu ədəbiyyat kiçik oxucularını zəngin tarixi ənənələr və dövrün tələbləri ruhunda tərbiyə etməyə çalışır" (Namazov, 2007: 326). Ümumiyyətlə, uşaq ədəbiyyatı bir istiqamətdə bilgi verməyə, gənc nəsli formalaşdırmağa, layiqli vətəndaş kimi etnik-mədəni dəyərləri aşılamağa yüklənir. Şərqi, nağıl, əfsanə, rəvayət, məsəl və s. nəyisə çatdırmağa və yüksək dəyərlər əsasında kökləməyə yüklənir. Məsələn, "Ayının armud ağacı" hekayəsində epizodik məqam xalq təsəvvüründə olan bir məsəldən öz qaynağını götürür və yazıçı da buradan çıxış edərək yazır: "Palıdlı meşəsində kiçik balası ilə bir Əyripəncəli ayı yaşayırdı. Onların komasının lap yanında bir armud ağacı bitmişdi. Ancaq ətrafını kol-kos basdığından bu ağac görünmürdü. Əyripəncə bir gün yuxudan durub, armud ağacının dibini kol-kosdan təmizlədi. Baxıb gördü ki, ağacın dibi illərlə bellənməyib. Bir sınıq bel tapıb götürdü, ağacın dibini belləyib boşaltdı.

Əyripəncənin balası yuxudan duranda gözlərinə inanmadı. Baxıb gördü ki, atası qan-tər içində bir ağaca qulluq edir.

– Nə edirsən, ay ata? – dedi.

Əyripəncə ağacı fərəhlə göstərərək:

– Bala, bax bu armud ağacıdır, - dedi – payızda daha armud üçün daha meşəni dolanmayacağıq. Kölgəsində oturub hazırca armudlarını yeyəcəyik" (Səmədov, 1984: 96). Yazıçı təhkiyəsi hər incə məqamı yerinə qoymaq və bilgi vermək baxımından bir əvəzsizliyi özündə ehtiva edir. Burada da epik mənzərə paradiqmatik səviyyədə periferik xarakteri ilə bilgi verməyə, həyatı dərkə, uşaqların yaddaşını və düşüncəsini genişləndirməyə yüklənir. Bunlar məzmun xətti etibarilə özlüyündə bir neçə qatı əhatələyir:

a) heyvanlar aləmi ilə tanışlıq aspektində ayı ilə bağlı təsəvvürü;

b) bitkilər aləmi ilə əlaqədar tanışlığı;

c) ayı balası anlamında verilən informasiyanı, əməksevərliyi;
ç) zəhmətkeşlik baxımından görülən işlərin məzmun və məramını;
d) mətn səviyyəsində semantik işarələnmənin tipologiyasını və s.

Göründüyü kimi, Əyripəncə ayı timsalında formalaşdırılan təsəvvür öz balasına həyatı öyrənmək, yaşam tərzini bilmək və s. baxımından əsaslı bir müəyyənliyi sərgiləyir. Müəllif mətn informasiyasında burada bir istiqamətdə heyvanlar aləmi (ayı timsalında) haqqında bilgi verirsə, digər istiqamətdə bitki aləmi (armud ağacı timsalında) təsəvvür formalaşdırır. Bədii mətn bütün sintaqmatik xarakteri ilə uşaqların təsəvvür və dünyagörüşünü genişləndirməyə, epik təhkiyə aspektində zəhmətkeşlik, əməksevərlik baxımından maraqlı bir nümunə ilə təsəvvürünü formalaşdırmağa köklənir. Qonur ayının Əyripəncənin yanına qonaq gəlməsi bir başqa mənzərəni sərgiləyir və bədii mətnin sonluq epizodu bütün spektrləri ilə müəllif qayəsini diqqət önünə gətirir: “Qonaq ayı donquldana-donquldana çıxıb getdi. Həmin gündən sonra elə bil meşənin bütün ayılarına xəbər oldu. Əyripəncənin qapısını açan olmadı. Ata-bala qonaqsız darıxmağa başladı” (Səmədov, 1984: 98). Burada isə məsələnin digər tərəfi, qonaqpərvərlik timsalında olan söhbət diqqət önünə gəlir. Əyripəncə ilə balası arasında olan söhbət bunun nümunəsidir. Müəllif yüksək sənətkarlıq intelleksiyası ilə ayı və onun balası arasındakı söhbətdən çıxış edərək etnik dəyərləri qonaqpərvərlik baxımından uşaqlara aşılamağa çalışır.

**Nağıl zənginliyi və Ə.Səmədovun nağılları**. Azərbaycan nağıllarında xalqın milli xüsusiyyətləri, adət-ənənələri, tarixi məişət tərzi təsvir olunur (Əsgərli, 2021: 66). Ən vacibi isə nağıl bir forma olaraq uşaqlar üçün əlçatmazlığı və sirli-sehrli aləmin təsiredicilik mənzərəsini əhatələyir. “Hərənin öz dərdi”, “Baqqal oğlu şah olanda”, “Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş”, “Ayı qonaqlığı”, “Tülkü tülkünü buyurdu, tülkü də quyruğunu”, “Şahın qoca dəvəsi”, “Qızıl inəyin nağılı”, “Padşaha lazımlı adam”, “Sehrli fırçanın nağılı”, “Ağır cəza”, “Kirpinin iynələri”, “Carçı xoruzlar” və s. bütün tərəfləri ilə uşaq dünyasını nağıl səviyyəsində əks etdirməyə köklənir. “Müasir uşaq ədəbiyyatının inkişafında özünəməxsus yeri olan, müxtəlif janrlarda yaratdığı maraqlı əsərləri ilə kiçik yaşlı oxucuların qəlbinə yol tapan” (Xəlil, Əsgərli, 2011: 380) ədib hər hansı nağılı ilə nəyisə çatdırmağa, bilgi verməyə xidmət edir. Klassik uşaq ədəbiyyatının görkəmli nümayəndələri S.M.Qənizadə, R.Əfəndizadə, H.Zərdabi, Y.Əfəndizadə, M.Hadi, Ə.Müznib, Ə.Nəzmi, M.Sidqi, İ.Həqqi, S.Mənsur, A.Səhhət, M.Ə.Sabir, A.Şaiq (Antologiya, 1998) və başqalarından gələn ənənənin uğurlu mənzərəsi olaraq spesifikləşir. Folklor və yazılı ədəbiyyat kontekstində özünü bütün təfərrüatı ilə ortaya qoymaq gücündə olan Ə.Səmədov yaradıcılığı sinxron və diaxron yanaşmalarda əsaslı bir təsəvvürlə təhlilləri zəruri edir.

“Daş üzük”, “Qaraqaşın nağılı”, “Ağ quş”, “Üç şahzadə”, “Qızıl qoç”, “Tülkü ilə canavar”, “Tülkü, tülkü tünbəki”, “Qoca aslan”, “Hiyləgər tülkü”, “Süleyman şah və qarışqa” (Nağıllar, 1985) və s. xalq arasında geniş işləklik qazanmış nağıl nümunələri uşaq ədəbiyyatı yaradıcıları arasında qaynaq funksiyasını yerinə yetirir. Ümumiyyətlə, “geniş xalq kütlələri əsrlər boyu bu nümunələri zamanın sərt sınağından çıxarmış, onları yalnız ideya və məzmunca deyil, forma, dil, bədii ifadə vasitələrinin zənginliyi cəhətdən də yüksək səviyyəyə qaldırmışdır” (Əfəndiyev, 1992:189). Ə.Səmədov da bu zənginlikdən bəhrələnməklə bir-birindən maraqlı bədii örnəklər yaradaraq uşaqların mənəvi dəyərlər əsasında formalaşmasına yardımçı olmuşdur. Məsələn, yazıçının “İbrət dərsi” adlı nağıl-hekayəsinə diqqət yetirək: “Keçmiş zamanlarda şah seçəndə qızılquş uçurardılar. Qızılquş kimin başına qonsaydı, onu da şah seçərdilər. Şah seçiləndən sonra onu təntənə ilə şahlıq taxtına çıxarardılar. Bu mərasimdə köhnə şahın günahı varsa, onu rüsvay edərdilər” (Səmədov, 1984: 104-105). Xalq mərasimləri toplum təsəvvüründə bir çoxluqla və müxtəlif məzmun xətləri ilə diqqət önünə gəlir. Şahlıq seçimi də bu mərasimlər içərisində özünə geniş yer alması ilə mühüm tərbiyəvi mahiyyət daşıyır. Hekayədə yeni şah seçilən adamın əvvəlki şahın ətrafında olanları sorğu-suala tutması nəticə çıxarmaq üçün tipikdir.

Xalq yaddaşı layiqli olma, kimin şahlıq taxtında oturması təsəvvürünü arxaik qatdan gələn bir törənə, qızılquş uçurma ənənəsinə bağlayır. Yaddaşda bunun atalar sözü, məsəl, nağıl, əfsanə, rəvayət kimi qəlibləşməsi örnəkləri vardır. Ə.Səmədov da bundan özünəməxsus şəkildə bəhrələnir. “Təzə şah vəzir-vəkili çağırıb dedi. “Təzə şah vəzir-vəkili çağırıb dedi:

– Bir məni agah edin görüm, bu şahın günahı nə idi ki, onu belə rüsvay edirdiniz" sualı nəticə çıxarmağa və insani dəyərləri əsas götürməyə həssaslıq nümayiş etdirir. Qohumbazlıq, yerlipərəstlik, acgözlük, rüşvətxorluq, aravuran və s. olması ilə əlaqəli qüsurlarını eşidən yeni şah bunlara gülümsəməklə münasibət bildirir və əlavə edərək soruşur ki, "bəs onu şahlıqdan salandan sonra nə üçün belə (tərsinə) ulağa mindirib rüsvay edirdiniz?

Vəzir:

– Binlar hamısı yeni şaha ibrət dərsi vermək üçün idi" (Səmədov, 1984: 104-105).

Ə.Səmədovun nağıl-hekayələri hər birisi ibrətamiz məzmunu ilə uşaqların bir şəxsiyyət kimi formalaşmasına yardımçı olma funksiyası yerinə yetirir.

"Xalq arasında əfsanə, rəvayət, mif, əsatir, nağıl örnəklərindən gələn rəmzləşmələr vardır. Səma cisimləri ilə əlaqədar söyləmələr də bura daxildir. Ay, Günəş, Karvanqıran ulduz və s. haqqında olan söyləmələr bunun nümunəsidir" (Vəliyev, 1985: 57). İlkin təsəvvürdən günümüzə qədər gəlib çıxan bu söyləmələr toplumun inam və etiqadlarına, təsəvvürlərinə bağlanır. "Oğuz Kağan" dastanındakı Oğuz Kağanın oğlanlarından üçünün adını Gün, Ay, Ulduz qoyması və s. bu sistemə daxildir. Ə.Səmədov da bütün bu zənginlikdən bəhrələnməklə "Günəşin övladları" adında maraqlı nağıl yazmışdır. Milyon-milyon illər bundan əvvəl nə yaşadığımız Yer kürəsi vardı, nə də gecələr işıq saçan Ay. Bircə Günəş vardı dünyada. Bir də aydınlıq gecələrdə göy üzündə parıldayan kiçik-kiçik ulduzlar.

Günəş tək olduğundan yamanca darıxırdı. Yazıq heç bilmirdi ki, haradan çıxır, harada batır. O, darıxdığından göylərdən övlad istədi. Göylər ona övlad bəxş elədi. Günəş onlara çox qısa ad qoydu: Yer və Ay (Günəşin uzun adlardan xoşu gəlmirdi).

Günəş öz övladlarını isti qoynunda bəsləyib böyüdürdü" (Səmədov, 1984: 158). Türk xalqlarının bağrının başından qopmuş "Yaradılış" dastanı, eləcə də Azərbaycan əfsanələri bu məzmunlu örnəkləri ilə bir zənginliyə dayanır. Ə.Səmədov burada günəşi ana olaraq obrazlaşdırır və Yer, Ay haqqında övlad səviyyəsində olan örnəkləri təkrarən yazı mühitində işləyərək mövzuya çevirir. Burada səma cisimləri haqqında uşaqlara bilginin verilməsi onların yaddaşında əhvalat kimi öz izini qoymaqla diqqətçəkici təsirdə özünü göstərir. Digər tərəfdən Günəşin ana kimi obrazlaşması və övladlarına verdiyi tərbiyənin önəmi vurğulanır. "Günəş onların cırılmış üz-gözlərinə, üst-başlarına baxıb çox məyus oldu. Bir qədər fikrə getdi. Handan-hana dilləndi:

– Dalaşmısınız? – dedi.

Yerlə Ay peşiman-peşiman başlarını tərpətdilər. Günəş yamanca qəzəbləndi. Nəfəsindən alov püskürdü, gözləri alışıb-yandı.

– Mən belə övladları istəmirəm! – dedi. -Gedin məndən uzaq olun!

Günəşin nərəsindən göylər guruldadı, şimşək alovları dilim-dilim yandı. Sanki, göylər təlatümə gəlib tufan qopardı. Göylərin bu təlatümü Yerlə Ayın hərəsini bir səmtə atdı. Onlar əbədi olaraq anaları Günəşə və bir-birinə həsrət qaldılar" (Səmədov, 1984: 159).

Ümumiyyətlə, uşaq ədəbiyyatı bütün tipologiyası ilə tərbiyəvi məzmun aşılamağa xidmət edir. Folklordan gələn bu zənginlik müxtəlif səviyyələrdə yazılı ədəbiyyatda da özünə yer alır. Ə.Səmədov toplum yaddaşında olanlardan çıxış edərək uşaqlar üçün tipik bir örnək yaratmışdır. "Mükəmməl bir əxlaq və davranış normativləri ilə diqqət önünə gələn bu nağıl-hekayə öz qaynağını folklordan almaqla əsaslı bir zamansızlığa dayanır" (Talıbov, Ağayev, İsayev, Eminov, 1993: 79).

## Nəticə

İyirminci yüzilliyin ikinci yarısından ədəbi-mədəni mühitdə uşaq ədəbiyyatının görkəmli nümayəndəsi kimi şöhrətlənən Ə.Səmədovun zəngin yaradıcılığı bütün məzmunu ilə folklordan gələn hadisə, süjet, mövzu və əhvalatları əhatələməyə köklənir. Nağılları da öz məzmun xətləri və mahiyyəti ilə eyni düşüncəni əks etdirməyə həssaslıq nümayiş etdirir. Bütün paradiqması ilə bilgi verməyə, bədii-estetik zövqü formalaşdırmağa, etnik müəyyənliyin spesifikasını əks etdirməyə daha çox önəm verməklə əvəzsizlik qazanır. Ümumiyyətlə, həmişə "Xalq ədəbiyyatı uşaq nəsrinin qızıl beşiyi kimi onun pərvərişi və inkişafında böyük rol oynayır" (Məmmədov, Babayev, Salamoğlu, 1992: 91). Xalq ədəbiyyatının zənginliklərindən gələn üslub, dil sadəliyi, məzmun aydınlığı görkəmli sənətkarı uşaqların sevimlisinə çevirmişdir.

**Ədəbiyyat**

1. *Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası.* (1998). Elm.
2. Əfəndiyev, P. (1992). *Azərbaycan şifahi xalq ədəbiyyatı.* Maarif.
3. Əsgərli, F. (2021). *Uşaq ədəbiyyatı*. ADPU.
4. Xəlil, Z., Əsgərli, F. (2011). *Uşaq ədəbiyyatı*. ADPU.
5. Məmmədov, M., Babayev, Y., Salamoğlu, T. (1992). *Pedaqoji mühit və uşaq ədəbiyyatı*. Maarif.
6. *Nağıllar. Azərbaycan ədəbiyyatı inciləri seriyasından*. (1985). Yazıçı.
7. Namazov, Q. (2007). *Azərbaycan uşaq ədəbiyyatı*. Bakı Universiteti.
8. Səmədov, Ə. (1984). *Hərənin bir ulduzu*. Gənclik.
9. Talıbov, Y., Ağayev, Ə., İsayev, İ., Eminov, A. (1993). *Pedaqogika*. Maarif.
10. Vəliyev, V. (1985). *Azərbaycan folkloru*. Maarif.

Daxil oldu: 12.06.2024
Baxışa göndərildi: 29.07.2024
Təsdiq edildi: 16.08.2024
Çap olundu: 30.08.2024

https://doi.org/10.36719/2789-6919/36/20-26

**Günay Ələkbərova**
Naxçıvan Dövlət Universiteti
doktorant
elekberovagunay30@gmail.com
https://orcid.org/0009-0003-1236-1786

# Məhəmməd Tağı Sidqi ədəbi irsində termin yaradıcılığı problemi

**Xülasə**

Azərbaycan maarifçiliyinin fədakar nümayəndələrindən olan Məhəmməd Tağı Sidqi Naxçıvanda yeni üsullu məktəb hərəkatında öncüllərdən olmaqla bərabər, yaradıcılığında dilçiliklə bağlı bir çox ciddi məsələlərə aydınlıq gətirməyə çalışmışdır.

Bu gün M.T.Sidqi yaradıcılığında rast gəlinən bəzi leksik vahidlər sanki ümumişlək sözlər təsiri bağışlayır. Müşahidələr deməyə əsas verir ki, şair istər milli, istərsə də ərəb və fars mənşəli sözlərə termin statusu verərkən həm sözlərin dildəki işləklik dərəcəsini, həm leksik mənasını, həm cəmiyyətin yeni dünyaya inteqrasiyasını, həm də zamanın şərtlərini eyni dərəcədə nəzərə almışdır. Daha doğrusu, görkəmli ziyalı hələlik təfəkkürlərdə elmsizliyin hökm sürdüyü zaman və məkan daxilində ayrı-ayrı bilik sahələri ilə bağlı anlayışları əksəriyyət müasirlərinin başa düşəcəyi dildə qələmə alaraq insanları maarifçilik hərəkatı ətrafında birləşməyə müvəffəq olmuşdur. Eyni səbəbdəndir ki, bəzən M.T.Sidqinin əsərlərində hansı sözün ümumişlək, hansı sözün termin olduğunu müəyyənləşdirmək xüsusi diqqət tələb edir. XIX əsrin sonları və XX əsrin əvvəllərində yaşayıb-yaratmış tərəqqipərvər ziyalıların, o cümlədən M.T.Sidqinin əsərlərində məktəbdarlıqla bağlı pedaqoji terminlərin bir qədər geniş yer tutduğunu görürük. Ümumiyyətlə, M.T.Sidqi yaradıcılığı deməyə imkan verir ki, XIX əsrin II yarısında maarifçilik hərəkatının nəticəsi olaraq Azərbaycan ədəbi dilində terminləşməyə meyil xeyli güclənmişdir. M.T.Sidqi yaradıcılığında ümumişlək sözlərin terminləşməsini izləyərkən məlum olur ki, bəzi məqamlarda mənanın xüsusiləşməsi baxımından proses hələ də davam etməkdədir. Qeyd-şərtsiz, Azərbaycan adlı bir məmləkətdə "ziyalıların ana dilinin ədəbi, ictimai-siyasi, ideoloji mövqeyi uğrunda illər boyun apardıqları məqsədyönlü mübarizə"də mücadilənin önündə dayanan aydınlardan biri də Məməmməd Tağı Sidqi olmuşdur. Nəzəri fikirlər ədəbi faktlarla əsaslandırılmışdır.

***Açar sözlər:*** *Məhəmməd Tağı Sidqi, termin, leksik vahid, ədəbi irs, yaradıcılıq, milli mənşə, ümumişlək söz*

**Gunay Alakbarova**
Nakhchivan State University
PhD student
elekberovagunay30@gmail.com
https://orcid.org/0009-0003-1236-1786

# The Problem of Term Creation in Muhammad Taghi Sidqi Literary Heritage

**Abstract**

Mohammad Taghi Sidgi, one of the devoted representatives of Azerbaijani education, was one of the pioneers of the new method school movement in Nakhchivan, and tried to clarify many serious issues related to linguistics in his work.

Today, some lexical units found in M.T.Sidgi's works seem like common words. Observations suggest that the poet, while assigning term status to words of national or Arabic and Persian origin, equally took into account the degree of functionality of the words in the language, the lexical meaning, the integration of the society into the new world, and the conditions of the time. More precisely, the prominent intellectual succeeded in uniting people around the enlightenment

Creative Commons Attribution-NonCommercial 4.0 International (CC BY-NC 4.0) 

movement by writing the concepts related to different fields of knowledge in a language that most of his contemporaries would understand, in a time and place where ignorance prevailed in the minds. It is for the same reason that sometimes in M. T. Sidgin's works, determining which word is general and which word is term requires special attention. In the works of progressive intellectuals who lived and created at the end of the 19th century and the beginning of the 20th century, including M. T. Sidgin, we see that pedagogical terms related to schooling occupy a rather wide place. In general, M.T.Sidgi's work allows us to say that in the second half of the 19th century, as a result of the Enlightenment movement, the tendency to term in the literary language of Azerbaijan increased considerably. When following the terminology of common words in T.Sidqi's work, it becomes clear that the process of meaning specialization is still ongoing at some points. Unreservedly, in a country called Azerbaijan, Mamammad Taghi Sidgi was one of the intellectuals who stood at the forefront of the struggle in "the purposeful struggle of intellectuals for the literary, socio-political, and ideological position of their mother tongue for years". Theoretical ideas are based on literary facts.

***Keywords:*** *Muhammad Taghi Sidqi, term, lexical unit, literary heritage, creativity, national origin, community*

## Giriş

XIX əsrin sonları və XX əsrin əvvəllərində Azərbaycan ədəbi dilinin inkişafına xidmət edən tərəqqipərvər ziyalılar sırasında Məməmməd Tağı Sidqinin özünəməxsus məqamı olması inkaredilməz faktdır. Doğrudur, görkəmli şair-pedaqoqun bu sahədəki fəaliyyəti həqiqi elmi dəyərini almamışdır. Halbuki yaşayıb-yaratdığı dövrdə ədəbi-elmi və pedaqoji mühitin, maarifçilik hərəkatının uğurlarında M.T.Sidqinin rolu danılmazdır. O da var ki, doğru olaraq Azərbaycan Xalq Cümhuriyyəti dövrü dövlətçilik prinsiplərinin formalaşdırılması eyni zamanda əsrlərin qovuşuğunda Azərbaycan maarifçilik hərəkatını təmsil edən ziyalıların fədakarlıqları ilə əlaqələndirilməkdədir. Budur, "Heydər Əliyev tariximizdə və taleyimizdə" kitabında haqqında danışılan proseslər elmi obyektivliklə belə dəyərləndirilir: "Azərbaycanda dil siyasətinin yürüdülməsi Azərbaycan Xalq Cümhuriyyəti dövründən başlayır. Həmin dövrə qədər görkəmli Azərbaycan ziyalıları ana dili, eləcə də Azərbaycanda gedən dil prosesləri barədə müəyyən mülahizələr söyləmiş, təkliflər vermişlərsə də, bütün bunlar dil siyasəti adlanan mürəkkəb hadisəyə bilavasitə aid edilə bilməz. Lakin Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan cəmisi 1 ay sonra türk dilini rəsmən dövlət dili elan etməsi XIX əsrin sonu, XX əsrin əvvəllərində müəyyənləşmiş milli ideologiyanın birbaşa təsirinin nəticəsi idi. Ə.Hüseynzadə, M.Şahtaxtlı, Ə.Ağayev, C.Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Ü.Hacıbəyli kimi ziyalıların ana dilinin ədəbi, ictimai-siyasi, ideoloji mövqeyi uğrunda illər boyun apardıqları məqsədyönlü mübarizə olmasaydı, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti bu məsələyə dərhal diqqət yetirməzdi" (Quliyev, 2023: 103).

## Tədqiqat

Qeyd-şərtsiz, Azərbaycan adlı bir məmləkətdə "ziyalıların ana dilinin ədəbi, ictimai-siyasi, ideoloji mövqeyi uğrunda illər boyu apardıqları məqsədyönlü mübarizə"də mücadilənin önündə dayanan aydınlardan biri də Məməmməd Tağı Sidqi olmuşdur. "Təəssüf və yenə təəssüf" məqaləsi deməyə əsas verir ki, bu fədai qələm sahibi öz fədakarlığı ilə hətta müasirlərinə doğru və yanlışı göstərmək səlahiyyəti qazanmışdır.

Məməmməd Tağı Sidqi yaradıcılığını səciyyələndirən cəhətlərdən biri Azərbaycan dilini terminlər baxımından zənginləşdirməsidir. Əlbəttə ki, şair-pedaqoq dil məsələsinə son dərəcə həssas yanaşdığından terminlərdən istifadənin də xüsusi məsuliyyət tələb etdiyinin fərqində olmuş, müəyyən mənada yeni tarixi mərhələdə leksikamızda terminlər qatının formalaşdırılması istiqamətində sistemli iş aparmışdır.

O da var ki, bu gün M.T.Sidqi yaradıcılığında rast gəlinən bəzi leksik vahidlər sanki ümumişlək sözlər təsiri bağışlayır. Bu sırada "elm" sözünü məxsusi vurğulamağa ehtiyac vardır. Maraqlıdır ki, maarifpərvər şairin "Elmin şərafəti" şeirində şair insanın elmlə bəxtiyarlığa qovuşacağını, bəşər övladının elm əsrində yaşadığını, hazırkı zamanda elmin insan üçün zərurətə çevrildiyini, elmin

gücü nəticəsində insanlığın nura qərq olacağını bildirməklə yanaşı, ağlın elmlə qüvvətlənəcəyini elan edir, elmin səadət gətirəcəyini söyləyir. Əlbəttə, dilimizdə "elm" sözünün ümumişləklik səviyyəsinə yüksəlməsində Azərbaycan mətbuatının ilk nümunəsi olan "Əkinçi" qəzetinin rolu danılmazdır. Daha doğrusu, qəzetin ayrı-ayrı saylarında 30-a yaxın müxtəlif məqamlarda "elm" sözü ilə qarşılaşırıq ki, həmin məqamlarda da hələlik elmdən ümumi şəkildə danışılmış, fərq qoyulmadan cəmiyyət üzvləri elm öyrənməyə istiqamətləndirilmişdir. İ.Səklikovun "Pedaqoji terminlər lüğəti" kitabında termin olaraq eyni sözün leksik mənasına belə aydınlıq gətirilmişdir: "Elm – dünya haqqında obyektiv, sistemli təşkil olunmuş və əsaslandırılmış biliklərin əldə olunmasına istiqamətlənən xüsusi növ idrak fəaliyyəti. Təbiət və cəmiyyətin inkişaf qanunauyğunluqlarını və obyektiv aləmə təsiri üsullarını öyrənən (meydana çıxaran) biliklər sistemi və bu biliklərin ayrıca sahəsi" (Səklikov, 2021: 283).

Maraqlıdır ki, M.T.Sidqinin əsərlərində sanki "elm" sözünün mahiyyətinə nüfuz edilməsi üçün bütöv bir sistem təklif etmişdir. Hər halda təkcə 9 bəndlik "Elmin şərafəti" şeirində "elm" sözünün 11 dəfə müxtəlif formalarda və mənalandırılmalarda işlədildiyini görürük. Məsələn, böyük pedaqoq "Oğlan" şeirində qətiyyətlə bildirir ki, cəhalətdən xilas yolu elm əldə etməkdədir.

Faktdır ki, əsrlər boyu dini özləri üçün gəlir mənbəyinə çevirən yalançı islam təəssübkeşləri bu dünyanın fani olması ideyasını təbliğ etmiş, beləliklə, insanların dünyagörüşünü ölgünləşdirmiş, əsl səadətin axirət dünyasında əldə olunacağı fikrini cəmiyyət üzvlərinin həyat fəlsəfəsinə çevirmişlər. M.T.Sidqinin "Məktəbdə" başlıqlı şeirində isə tamamilə başqa bir mənzərə ilə qarşılaşırıq. Həyatda xoşbəxtliyə gedən yolun məktəbdən başladığını bildirən şair üzünü yeni nəsillərə tutaraq söyləyir ki, elm insana ölümsüzlük qazandırmaq gücünə malikdir.

XIX əsrin sonları və XX əsrin əvvəllərində yaşayıb-yaratmış tərəqqipərvər ziyalıların, o cümlədən M.T.Sidqinin əsərlərində məktəbdarlıqla bağlı pedaqoji terminlərin bir qədər geniş yer tutduğunu görürük. Belə leksemlərdən biri də "dərs"dir. Düşündürücüdür ki, "Əkinçi" qəzeti səhifələrində "dərs" sözü son dərəcə az işlədilmişdir. M.T.Sidqinin ayrı-ayrı əsərlərində 30-a yaxın "dərs" sözünə rast gəlirik ki, həmin sözlər yerlərinə görə müxtəlif mənalar daşıyır. Məsələn, "Məmmədəliyə nəsihət" şeirində eyni leksem məktəbdə keçirilən fənlər anlamındadır. Əlbəttə, böyük pedaqoq dərsdən təlim prosesi olaraq da söz açmışdır. Bütün hallarda, dilimizin lüğət tərkibində yer tutan "dərs" bir leksem kimi hamı tərəfindən başa düşülsə də, pedaqoji terminlər sırasında xüsusi məqama malikdir. Budur, "Qısa izahlı pedaqoji terminlər lüğəti" kitabında eyni söz terminoloji aspektdən belə izah olunur: "Dərs - tədris prosesinin məna, vaxt və təşkili cəhətdən bitkin kəsiyidir. Eyni zamanda mürəkkəb və məsul mərhələsidir. Fənlər üzrə məzmun standartları, əsasən, dərs prosesində reallaşdırılır. Dərs standart və qeyri-standart olmaqla iki növə bölünür. Adətən, o dərslər keyfiyyətli hesab edilir ki, innovativ xarakter daşısın və müasir tələblərə cavab versin. Dərs, həmçinin, təlimin əsas təşkilat forması hesab edilir" (Qısa izahlı pedaqoji terminlər lüğəti, 2019: 6).

Təqdirəlayiqdir ki, M.T.Sidqinin rəhbərlik elədiyi dövrdə "Məktəbi-Tərbiyə" adlı təhsil ocağında dərs məhz müasir pedaqoji tələblərə cavab verəcək səviyyədə təşkil olunmuşdur. Hətta maarifpərvər ziyalının dostu Qurbanəli Şərifzadəyə yazdığı məktublardan birinə əsaslanıb demək olar ki, Naxçıvanın bu görkəmli pedaqoqu müəllimin dərsə hazırlığını da vacib saymışdır (Sidqi, 2004: 232).

Ümumiyyətlə, M.T.Sidqi yaradıcılığı deməyə imkan verir ki, XIX əsrin II yarısında maarifçilik hərəkatının nəticəsi olaraq Azərbaycan ədəbi dilində terminləşməyə meyil xeyli güclənmişdir. Müqayisə üçün qeyd etmək olar ki, M.Füzulinin "Leyli və Məcnun" əsərində də dönə-dönə məktəbdən danışıldığını görürük. Bununla belə, M.Füzuli məktəbi Məcnunun Leyliyə rast gəldiyi və ona məhəbbət bəslədiyi, hər gün Leylini görmək üçün tələsdiyi, Leylinin valideynləri tərəfindən təkidlə göndərildiyi, uşaqların müəllim tərəfindən cəzalandırıldığı məkan olaraq təsvir etmişdir (Füzuli, 2005: 49-61).

M.T.Sidqi isə məktəbdən tamamilə yeni bir müəssisə kimi söz açmışdır. Fikirlərimizin təsdiqi üçün "Məmmədəliyə nəsihət" şeirinə diqqət yetirmək kifayətdir. 13 beytdən ibarət şeirin ilk üç beytində atanın oğula mehribanlığı ifadə olunursa, digər 10 beytdə dərsdən, məktəbdən, təhsildən, elmdən danışılır, yeni nəsillər xarici dil öyrənməyə təşviq edilir. Şairə görə, məktəb dərs prosesinin

həyata keçirildiyi, yeni nəsillərin təhsillə təmin edildiyi, uşaqların kitab, dəftər və qələmlə ünsiyyətdə olduğu, zəkalarda cəhaləti elmlə əvəzləyən müqəddəs bir məkandır. Yəqinliklə demək olar ki, Azərbaycan milli elmi düşüncə tarixində Avropaya inteqrasiya olunmuş məktəb anlayışının ilk geniş və əhatəli şərhi məhz M.T.Sidqiyə məxsusdur. Böyük ziyalı yeni dünyada məktəbin insan həyatında oynadığı rolu belə mənalandırmışdır: “Məktəb nədir? Məktəb bizim elm və maarifimizin vasitəsi, dünya və axirətimizin səadətinin səbəbidir. Elm və ədəb bir xəzinəyə bənzər ki, onun açarı məktəbdir. Bizləri nadanlıq zülmətindən qurtarıb nuri-mərifəətə yetirən məktəbdir. Çünki insanın qədr və qiyməti elm ilə bilinir, yəni elmi və mərifəti nə dərəcədə olsa, habelə dəyəri və qiyməti o qədərdir. Pəs, insanın əsl qiyməti bildiyi və öyrəndiyi şeylərdən ibarət imiş ki, o da məktəb ilə hasil olur.

Məktəb cəhalət dərdinin dərmanı və mərifət bağının xiyabanıdır ki, həmişə cahilləri alim və divanələri aqil eylər” (Sidqi, 2004: 67).

Qeyd-şərtsiz, M.T.Sidqi əsərlərində terminlərin semantik məna yükündən geniş şəkildə faydalanma şair-pedaqoqun müasirlərinin yaradıcılığına da ciddi surətdə təsir göstərmişdir. Budur, S.Quliyeva “XX əsrin əvvəllərində mətbuatda işlənən terminlər “Molla Nəsrəddin” jurnalı əsasında)” məqaləsində məcmuədə yer tutan materiallara istinadən təsnifat apararaq yazmışdır: “Molla Nəsrəddin” jurnalında işlənən terminləri mənşə olaraq aşağıdakı kimi qruplaşdıra bilərik: a) milli mənşəli; b) ərəb və fars mənşəli; c) rus mənşəli; ç) rus dili vasitəsilə keçən Avropa mənşəli sözlər” (9).

Prinsipcə, eyni təsnifatı M.T.Sidqi əsərlərində qələmə alınmış terminlərə də aid etmək mümkündür. Müşahidələr deməyə əsas verir ki, şair istər milli, istərsə də ərəb və fars mənşəli sözlərə termin statusu verərkən həm sözlərin dildəki işləklik dərəcəsini, həm leksik mənasını, həm cəmiyyətin yeni dünyaya inteqrasiyasını, həm də zamanın şərtlərini eyni dərəcədə nəzərə almışdır. Daha doğrusu, görkəmli ziyalı hələlik təfəkkürlərdə elmsizliyin hökm sürdüyü zaman və məkan daxilində ayrı-ayrı bilik sahələri ilə bağlı anlayışları əksəriyyət müasirlərinin başa düşəcəyi dildə qələmə alaraq insanları maarifçilik hərəkatı ətrafında birləşməyə müvəffəq olmuşdur. Eyni səbəbdəndir ki, bəzən M.T.Sidqinin əsərlərində hansı sözün ümumişlək, hansı sözün termin olduğunu müəyyənləşdirmək xüsusi diqqət tələb edir. Məsələn, “Töhfeyi-benat, yainki qızlara hədiyyə” əsərinin “Qiraət” başlıqlı hissəsindən oxuyuruq: “Xanım qızlar! “Əlifba” kitabını diqqətlə oxudunuz. Və hər bir dərsin başında yazılan hərflərin şəkillərini və sədalarını lazımınca öyrənib və anladınız. İndi bu gözəl kitabı oxumaq sizlərə çox asan və faydalı olacaq. Bunda neçə şirin hekayətlər yazılıb! Və neçə gözəl dərslər tərtib olunubdur. Bu əvvəlinci dərsdə istəyirəm yenə “Əlifba” kitabında oxuduğunuz dərsləri yadınıza salım. Xatirinizdədir ki, hərflərin hamısı otuz dörddür. Və o hərflər kəlmənin başında, arasında və axırında yazılanda hər biri neçə surətə düşür. Və hərflər bir-birinə yapışanda səslər hasil olur ki, o səslərdən kəlmələr əmələ gəlir. Məsələn, a-ta, a-na, ba-ba ki, bu səslərdən ata, ana, baba kəlmələri təşkil olunur. Necə ki, ba-la-bal-dan-şi-rin-dir sədalarından “bala baldan şirindir” ibarəti əmələ gəlir...” (Sidqi, 2004: 106).

Göründüyü kimi, bu kiçik mətndə çağdaş Azərbaycan dilçilik elmində geniş yer tutan bir neçə termin işlədilmişdir ki, onlara nümunə olaraq “hərf”, “səda”, “dərs”, “kəlmə”, “ibarət” terminlərini göstərə bilərik. Maraqlıdır ki, M.T.Sidqi nümunəsini versə də, termin kimi “heca” yerinə “səs” və “səda” sözlərini işlətmiş, leksem-söz mənasında “kəlmə” terminini məqsədəuyğun saymış, mətndə “cümlə” sözü işlətsə də, termi anlamında “ibarət” yazmışdır. Hər halda düşündürücüdür ki, M.T.Sidqi əsərlərinin leksikonunda “heca” sözünə rast gəlinmir. “Cümlə” leksemini isə şair böyük əksəriyyətlə cəm mənasında işlətmiş, bir-iki məqamda dil vahidi anlamında mətnə daxil etmişdir.

Digər tərəfdən, düşünürük ki, “Töhfeyi-benat, yainki qızlara hədiyyə” əsərində termin olaraq “söz” əvəzinə “kəlmə” işlədərkən M.T.Sidqi “Vətən dili-II cild” dərsliyi ənənəsindən faydalanmışdır.

Bildiyimiz kimi, A.O.Çernyayevski və S.Vəlibəyovun müəllifliyi ilə 1888-ci ildə Tiflis şəhəri “Kəşkül” mətbəəsində nəşr olunan “Vətən dili-II cild” kitabı Azərbaycan maarifçilik hərəkatı nümayəndələri tərəfindən yüksək qiymətləndirilirdi. Bu qiymətli dərsliyin bir nüsxəsi də M.T.Sidqinin şəxsi kitabxanasında mövcud idi və təsadüfi deyildir ki, adıçəkilən mənbədə dil vahidi olaraq “söz” deyil, “kəlimə”yə rast gəlirik.

Eyni dərslikdə "söz" leksemi sanki cümlə, mətn, nitq mənalarını daşıyır. Görsənir, "Vətən dili" dərsliklərinin müəllifləri bu məqamda Azərbaycan xalq danışıq dilində geniş yer tutan "Qoy sözümü qurtarım", yaxud "Atalar sözləri" kimi ifadələrə əsaslanmışlar. H.Mirzəyev terminologiyadan bəhs edərkən yazmışdır: "Dilin lüğət tərkibində terminlərin xüsusi yeri vardır. Burada elm, texnika, siyasət və mədəniyyətə aid xüsusiləşmiş mənalı söz və ifadələrdən söhbət açılır. Termin kimi yaranan sözlərin bir qismi sonradan ümumişlək sözə çevrilir. Bir qismi isə həm termin, həm də ümumişlək söz kimi işlənir. Terminlər əsasən aşağıdakı üsullarla yaranır: 1. Semantik üsul; 2. Morfoloji üsul; 3. Sintaktik üsul; 4. Kalka üsulu" (Mirzəyev, 2006: 31).

M.T.Sidqi yaradıcılığında ümumişlək sözlərin terminləşməsini izləyərkən məlum olur ki, bəzi məqamlarda mənanın xüsusiləşməsi baxımından proses hələ də davam etməkdədir. Məsələn, məlumdur ki, bu gün Azərbaycan dilində "dil" sözü həm çoxmənalılığa, həm də terminləşməyə nümunə olaraq göstərilə bilir. Əlbəttə, min illərdir ki, bu söz dilimizin lüğət tərkibində yer tutmaqdadır. Hətta "Kitabi-Dədə Qorqud" dastanında da eyni sözün iki məna daşıdığını görürük ki, bunlardan biri bədən üzvü, digəri söhbət mənasıdır ("Kitabi-Dədə Qorqud" dilinin izahlı lüğəti, 1999: 76). "Kitabi-Dədə Qorqud"da hətta "dil" sözündən "dilək" sözünün yaranması da müşahidə edilməkdədir və mühüm olanı odur ki, XVIII əsr Azərbaycan ədəbi dilində, xüsusən M.P.Vaqifin şeirlərində eyni vəziyyət izlənilməkdədir. Daha doğrusu, gözəlləmələr ustadı M.P.Vaqif "Gəlmədi" rədifli qoşmasında öz görüş bucağını real Azərbaycan gözəlinə belə ünvanlamışdır: "Ağzı xeyir sözlüm, dili diləklim" (Vaqif, 2004: 39).

Şübhəsiz ki, XIX əsrin 30-cu illərindən başlayaraq Azərbaycanda yeni tipli məktəblərin fəaliyyətə başlaması, həmin məktəblərdə dil dərslərinin keçirilməsi lüğət tərkibində dilçilik terminlərinin artması ilə nəticələnmişdir. Bu səbəbdəndir ki, M.T.Sidqinin əsərlərində "dil" lekseminin həm ümumişlək söz, həm də termin məqamında işlədildiyi müşahidə edilməkdədir. Əlbəttə, şairin "Quran" dilinizdə əzbər olsun", yaxud "Dilim aciz qalıb vəsf etməyə, təbimdə qüvvət yox" kimi misralarında termin işlədildiyini söyləmək qeyri-real olar. Lakin şair-pedaqoq "Məmmədəliyə nəsihət" şeirində sözün leksik mənasını xüsusiləşdirmiş, artıq dilçilik elminin obyekti olan dildən belə bəhs etmişdir:

Ömrünü məsrəf eylə bir neçə il,
Taki təhsil edəsən bir neçə dil.
Urusu, farsı, türkü, həm ərəbi
Onları bilmək artırır ədəbi (Sidqi, 2004: 21).

Doğrudur, semantik üsulla termin yaradıcılığının M.T.Sidqi əsərlərinin dilində daim müvəffəqiyyətlə nəticələndiyini söyləmək doğru olmaz. Bu baxımdan "Yüz il yatandan sonra" şeirindəki bir məqam xüsusilə diqqətçəkicidir. 11 beytdən ibarət şeir bütünlüklə həyatın və dünyanın yeniləşməsi haqqındadır. Bu yeniləşmədə elektrikin kəşfi, cərəyanın uzaq məsafələrə ötürülməsi xüsusilə mühüm yer tuturdu. Əlbəttə, M.T.Sidqinin yaşayıb-yaratdığı illərdə Naxçıvanda elektrikdən söz açmaq absurd təsir bağışlaya bilərdi. Şübhəsiz ki, XIX əsr Azərbaycan ədəbiyyatını təmsil edən yazarların əsərlərində "elektrik cərəyanı", yaxud "teleqraf" kimi ifadə və sözlərin yer tutmaması təbii haldır.

O da var ki, "Əkinçi" qəzetində teleqrafdan, teleqrafın çatdırılması üçün istifadə edilən məftildən ara-sıra bəhs edildiyini görürük. "Yüz il yatandan sonra" şeirində isə müəllif "naqil", "məftil" əvəzinə "tel" sözünün işlədilməsini məqsədəuyğun bilmiş, beləliklə, Azərbaycan dilinin terminoloji leksikasını zənginləşdirməyə çalışmışdır:

Yüz il yatdım, durdum, baxdım dünyaya,
Nəzər saldım dağa-daşa, dəryaya.
... Baxdım su altından çəkilib tellər,
Teldə danışılır cürbəsür dillər (Sidqi, 2004: 25).

Qeyd etməyə ehtiyac vardır ki, M.T.Sidqinin termin olaraq Azərbaycan ədəbi dilinə gətirdiyi "tel" leksemi təsirsiz ötüşməmiş, şair-pedaqoqun yaxın dostu C.Məmmədquluzadənin əsərlərində, o cümlədən "Nə eləmək?" ("Molla Nəsrəddin" jurnalı, 21 iyun 1906, №16), "Bayramlar" ("Molla Nəsrəddin" jurnalı, 12 may 1917, №12) kimi felyetonlarında, "Ölülər" tragikomediyasında neologizm səviyyəsində özünü göstərmişdir.Hətta C.Məmmədquluzadənin yaradıcılığına əsaslanıb

demək olar ki, "tel" sözü ədəbi dildən əvvəl teleqraf mənasında danışıq dilində yer tutmuş, M.T.Sidqi də bu faktdan faydalanmışdır.

Şair və yazıçıların əsərlərində, eləcə də mətbuatda termin yaradıcılığına daha geniş imkan yaratmaq baxımından morfoloji üsul məxsusi dəyərləndirilməlidir. Məlumdur ki, bu üsulun əsasında leksik şəkilçilərdən faydalanaraq yeni sözlər yaratmaq dayanır. M.T.Sidqinin əsərlərində rast gəlinən qəzetəçi, yazıçı, millətpərəstlik, ziraətçi, saatsaz, krallıq, imperatorluq, şeirbazlıq, insanlıq, qədrşünaslıq, daşlıq, həməfkarlıq, xəttatlıq, qafiəpərdaz, şikayətnamə, nəsihətnamə, ruznamə, həvadisnamə kimi sözlər məhz morfoloji yolla yaradılmış terminlərə nümunə ola bilər. Göründüyü kimi, termin yaratmaq işində M.T.Sidqi morfoloji üsulun bütün imkanlarından, eləcə də alınma söz və şəkilçilərin leksik və qrammatik mənalarından yüksək səviyyədə faydalanmışdır. Doğrudur, yuxarıdakı bütün sözlər məhz M.T.Sidqi tərəfindən yaradılmayıb. Bununla belə, dilimizdə həmin terminlərin işləklik dərəcəsinin artması, bəzilərinin isə terminoloji leksikaya gətirilməsi birbaşa M.T.Sidqinin adı ilə bağıdır. Məsələn, "Əkinçi" qəzetinin dilində "qəzetçi", "yazıçı" terminləri yoxdur.

Yaxud eyni mətbu orqanın səhifələrində 200-dən artıq millət sözü işlədilsə də, yalnız bir yerdə "millətpərvərlik" sözü ilə qarşılaşırıq. Həmçinin, H.Zərdabi tərəfindən çap olunan qəzetdə 65 dəfə "ziraət" leksemi yer tutsa da, "ziraətçi" termininə rast gəlinmir. Bu mənada Azərbaycan ədəbi dilində "qəzetəçi", "yazıçı", "ziraətçi", "millətpərəstlik", "şeirbazlıq", "imperatorluq", "qafiəpərdaz," kimi terminlər birbaşa M.T.Sidqi düşüncəsinin məhsuludur.

XIX əsr Azərbaycan ədəbi dilində leksik-terminoloji normanın bir qədər də dəqiqləşməsindən bəhs edən T.Hacıyev "Azərbaycan ədəbi dili tarixi" kitabının II hissəsində yazır: "XIX əsrdə dilimizə ərəb-fars sözləri gəlməsinin qarşısı alınır, həm də XVII-XVIII əsrlərdən gələn demokratizmin davamı kimi, həmin mənbələrdən alınan sözlərin ümumi və xüsusi çəkisi düşür: 1.Rus-Avropa mənbəyinin işə başlaması ilə, təbii ki, köhnə mənbənin bazarı daralır; 2.Əsas meyil kimi xəlqiliyin aparıcılığı canlı ünsiyyət dilinə diqqəti gücləndirir; 3. Ədəbi dil normasının təşkilinə yeni tipli ziyalılar ton verdiklərindən və onlar rus-Avropa dillərində təhsil aldıqlarından, rus mədəniyyətinə rəğbət bəslədiklərindən ədəbi dil normasına, rus ziyalılarının öz ana dillərinə münasibəti məzmununda demokratik münasibət müəyyənləşir. Bütün bunların nəticəsində mənimsəmə mənbəyi kimi ərəb-fars dillərinin mövqeyi sıxışdırılır." (Hacıyev, 1987: 293).

Hesab edirik ki, yuxarıdakı sitatda müəyyən qədər ifrata varılmışdır. Çünki müəllif haqqında bəhs olunan dövrdə Azərbaycan ədəbi dilinin daha çox rus-Avropa mənşəli terminlərlə zənginləşdirildiyini vurğulasa da, sanki nəzəriyyə dərsliklərinə əsaslanmış, elmi mənbələrdəki ənənəvi deyim formasında rus-Avropa mənşəli sözlərin dilimizə gətirilməsini yenilik səviyyəsində dəyərləndirmiş, hətta bunun səbəbini xalqların eyni siyasi, iqtisadi, mədəni həyatı yaşamaları ilə əlaqələndirmişdir. Bəli, "Azərbaycan ədəbi dili tarixi" kitabında doğru olaraq dil əlaqələrinin lüğət tərkibinə təsiri nəzər nöqtəsinə çəkilmiş, gəlmə sözlərin ayrı-ayrı elm sahələri ilə bağlılığı, yəni dildə terminoloji qatı gücləndirməsi belə qeyd edilmişdir: "XIX əsr Azərbaycan ədəbi dilinin lüğət tərkibində diqqəti çəkən yenilik rus-Avropa sözlərinin işlənməsidir. Bu hadisə tarixi-siyasi şəraitlə bilavasitə bağlıdır. Xalqların siyasi, iqtisadi, mədəni ünsiyyəti, məlum olduğu kimi, dil əlaqəsini də labüd edir. Dil əlaqəsində ən fəal vasitəçi hissə lüğətdir ki, həmin dövrdə Azərbaycan dilinə rus dilindən və onun vasitəsilə başqa Avropa dillərindən sözlər gəlir. Gəlmə sözlər terminoloji məzmun daşıyır və ictimai-mədəni həyatın müxtəlif sahələrini əhatə edir. Maraqlıdır ki, iqtisadi, inzibati-hüquqi terminlərlə yanaşı, ədəbiyyat və incəsənətlə bağlı çoxlu terminlər alınır" (Hacıyev, 1987: 293).

M.T.Sidqinin əsərləri deməyə əsas verir ki, XIX əsrin sonlarında Azərbaycan yazarları rus-Avropa dillərindən terminlərin alınmasına bir qədər ehtiyatla yanaşmış, bəlkə də, auditoriyanın düşüncə tərzini nəzərə aldıqlarından ərəb-fars mənşəli terminlərdən daha çox istifadə etmişlər. Əslində prosesin bu cəhəti T.Hacıyev tərəfindən də təsdiqlənmişdir. Belə ki, dilçi alim mənşə etibarilə rus-Avropa dillərinə məxsus terminlərdən bəhs edərkən 27 sözü, fars-ərəb dillərindən alınma terminləri aydınlaşdırarkən 110 sözü nümunə olaraq göstərmişdir (Hacıyev: 1987: 293). M.T.Sidqi hətta morfoloji yolla termin yaradarkən də doğma dilin imkanlarından, həmçinin əsrlərdə dilimizdə yer tutan alınma şəkilçilərdən gərəyincə faydalanmışdır. Məsələn, ustad şair-pedaqoqun

əsərlərində rast gəlinən insanlıq, daşlıq, dağlıq sözlərində alınma, yaxud doğma dilə mənsub sözlərə -lıq$^4$ şəkilçisinin artırıldığını görürük. Şeirbazlıq, sənətkarlıq, qədrşünaslıq, həməfkarlıq sözlərində isə görkəmli ziyalı başqa bir gediş etmiş, həm kökü, həm də şəkilçisi alınma olan düzəltmə sözlərə yenə də -lıq$^4$ şəkilçisi əlavə edərək sanki dildə milliləşdirmə aparmışdır.

## Nəticə

Beləliklə, M.T.Sidqi yaradıcılığında terminoloji məzmun daşıyan sözlərin tədqiqi deməyə əsas verir ki, XIX əsrin sonu və XX əsrin əvvəllərində maarifçilik hərəkatının təntənəsi səbəbindən Azərbaycan dilinin lüğət tərkibində termin qatı xeyli zənginləşmiş, milli təfəkkürün Avropaya inteqrasiyası yeni məzmun almış, cəmiyyət üzvlərinin modern dünya ilə təması qaçılmaz olmuş, bütün bunlar isə ədəbi dildə öz təsdiqini tapmışdır.

## Ədəbiyyat

1. Abbasov, Ə. (tərtibçi). (2019). *Qısa izahlı pedaqoji terminlər lüğəti*. Elm və təhsil.
2. Füzuli, M. (2005). *Əsərləri*. 6 cilddə, II cild. Şərq-Qərb.
3. Hacıyev, T. (1987). *Azərbaycan ədəbi dili tarixi*. II hissə. Maarif.
4. *“Kitabi-Dədə Qorqud” dilinin izahlı lüğəti*. (1999). Elm.
5. Quliyev, Ə., Quliyeva, A. (2023). *Heydər Əliyev tariximizdə və taleyimizdə*. Əcəmi.
6. Mirzəyev, H. (2006). *Azərbaycan dilində feil*. II. Elm.
7. Səklikov, İ. (2021). *Pedaqoji terminlər lüğəti*. Azəri.
8. Sidqi, M.T. (2004). *Əsərləri*. Çaşıoğlu.
9. Terminologiya məsələləri. (2022). №21. file:///C:/Users/Deniz%20Servis/Downloads/TERMNOLOGYAMSLLR-202221681798863-45-50%20(1)
10. Vaqif, M.P. (2004). *Əsərləri*. Şərq-Qərb.

Daxil oldu: 13.06.2024
Baxışa göndərildi: 26.07.2024
Təsdiq edildi: 20.08.2024
Çap olundu: 30.08.2024

https://doi.org/10.36719/2789-6919/36/27-31

**Nərminə Qədimova**
Naxçıvan Dövlət Universiteti
nermineqedimova11@gmail.com
https://orcid.org/0009-0008-5033-9254

# Qərbi Azərbaycana qayıdış

**Xülasə**

Qərbi Azərbaycan torpaqlarında hər daş, hər qaya sanki: “Mən qədim oğuz eli, türk yurduyam”- deyir. Yerin altından da, yerin üstündən də türk izləri çıxır. Yerin üstündəkiləri saxtalaşdıran ermənilər yerin altından da bu izləri yox etməyə çalışırlar. Tarixin qənimi ermənilər İrəvan şəhərinin köhnə simasını tam dağıdıb, torpaq altında gizlədiblər. Azərbaycan şəhəri İrəvanın Qantar bazarını söküb, yerində uşaq parkı saldılar. İndi qazıntı zamanı buradan tapılan İrəvan xanına aid şəxsi əşyalar, eləcə də Azərbaycan irsinə aid maddi və mənəvi sübutlar erməni yalanı müəlliflərini çətinə salıb deyə, min cür yalanla nağıllar uydurub, gerçəyi yenidən torpaq altına gömürlər. Ermənilər məhz maliyyəni bəhanə edib tarixi həqiqəti - İrəvan şəhərində Azərbaycan tarixini və mədəniyyətini torpaq altında məhv edirlər. Bu vandallar azərbaycanlıların tarixi-etnik torpaqlarındakı izlərini silməklə yanaşı, onlara məxsus toponimlərə qarşı da soyqırım həyata keçirmişlər. Əvvəllər azərbaycanlıların yaşadıqları 703 yaşayış məntəqəsinin adlarını dəyişdirərək erməniləşdirmişlər. Özlərini dünyaya “qədim xalq”, “mədəni xalq”, kimi təqdim edən ermənilər, həqiqətdə azərbaycanlıların mədəni irsinə qarşı əsl barbarlıq və vandallıq “nümunəsi” göstərirlər və xristian ölkələrinin onları dəstəkləmələri üçün “ilk xristianlığı qəbul edən millət” kimi özlərini təqdim edirlər. Qəribə burasındadır ki, dəyişdirdikləri yer adları yenə də türk sözlərindən ibarətdir.

***Açar sözlər:*** *Azərbaycan, Qərbi Azərbaycan, tarix, Dədə Qorqud, xalq*

**Narmina Gadimova**
Nakhchivan State University
nermineqedimova11@gmail.com
https://orcid.org/0009-0008-5033-9254

# Return to West Azerbaijan

**Abstract**

In the lands of Western Azerbaijan, every stone and rock says, "I am the ancient Oghuz tribe, the Turkic homeland." There are Turkish traces both above and below the ground. The Armenians who falsified the above ground are trying to erase these traces from below the ground as well. Armenians, the spoils of history, completely destroyed the old face of the city of Iravan and hid it underground. They demolished the Gantar market in the Azerbaijani city of Yerevan and built a children's park in its place. Now, the personal belongings belonging to the Khan of Iravan, as well as the material and spiritual evidence of Azerbaijan's heritage found here during the excavation, made it difficult for the authors of Armenian lies, so they make up tales with a thousand lies and bury the truth under the ground again. They are destroying the history and culture underground. These vandals have not only erased their traces on the historical and ethnic lands of Azerbaijanis, but also carried out genocide against their toponyms. They changed the names of 703 settlements where Azerbaijanis used to live and made them Armenian. Presenting themselves to the world as an "ancient nation", a "civilized nation", Armenians in reality show a real "example" of barbarism and vandalism against the cultural heritage of Azerbaijanis, and they present themselves as "the first nation to accept Christianity" so that Christian countries support them. The strange thing is that the place names they changed still consist of Turkish words.

***Keywords:*** *Azerbaijan, Western Azerbaijan, history, Dede Gorgud, people*

Creative Commons Attribution-NonCommercial 4.0 International (CC BY-NC 4.0) 

## Giriş

Azərbaycan adı çəkiləndə insanlar tərəfindən yalnız qartala bənzəyən bir ölkə başa düşülür. Lakin bir zamanlar bu ölkənin sahib olduğu torpaqları, onun güçünü, nələrə qadir olduğunu, demək olar ki, çox az insan bilir. Şimali Azərbaycan, Cənubi Azərbaycan və bir də Qərbi Azərbaycanımız var. Qərbi Azərbaycan deyəndə Vətənimin ən yaralı hissəsi - İrəvan və Gümrü şəhərləri, Vedibasar, Zəngibasar, Göyçə, Dərələyəz, Dərəçiçək, Zəngəzurun Meğri, Gorus, Sisyan, Qafan bölgələri, Ağbaba yada düşür. Bəli, bu yerlər Vətənimin ürək ağrıdan, qəlb göynədən parçasıdır. Türksüz türk torpaqlarıdır. İndi sinəsinə dağ çəkilən, adları dəyişdirilən bu yerlərdə vaxt var idi Dədə Qorqud qopuz çalıb, söz qoşub, igidlərə ad verib. Koroğlu at çapıb, igidləri ilə qarı düşmənə meydan oxuyub. Ağ Aşıq, Aşıq Alı, Aşıq Ələsgər və digər əvəzolunmaz ustadlarımız məclislərdə, toylarda dağlarımızı, güllü-çiçəkli torpağımızı, buz bulaqlarımızı tərənnüm edib, el gözəllərimizi tərifləyiblər. Bu torpaq Azərbaycan elminə görkəmli şəxslər - ictimai xadimlər, elm, mədəniyyət, ədəbiyyat və incəsənət aləmində öz sözü olan şəxslər bəxş etmişdir. Ona görə də Qərbi Azərbaycan adlı bu həqiqəti bu gün biz dünya ölkələri xalqlarına bəyan etməli, çatdırmalıyıq. Deməliyik ki, Ermənistan deyilən dövlətin ərazisi əzəli Azərbaycan torpaqlarıdır. Nə qədər ki Azərbaycan xalqı yaşayacaq, bu həqiqət də yaşayacaqdır! Gün gələcək, xalqımızın, güclü dövlətimizin sayəsində parçalanmış Azərbaycanımız bütövləşəcək. Və inanırıq ki, o gün çox da uzaqda deyil. Artıq Naxçıvanın Batabat yaylağından Qərbi Azərbaycana qayıtmağımızı düşmənə səsli mesajla göndərdik.

## Tədqiqat

Yaşadığımız regionda elə bir xalq yoxdur ki, ermənilərin onlara qarşı hər hansı bir iddiası olmasın. Bəs görəsən niyə dini etiqaddan tutmuş mədəniyyət nümunələrinə kimi, tarixi abidələrdən kulinariyaya qədər, coğrafi adlardan tarixi şəxsiyyətlərədək və bir çox məsələlərdə erməni saxtakarlıqları özünü göstərir? Fikrimizcə, bütün bu mütəşəkkil saxtalaşdırma cəhdlərinin əsas səbəbini erməni xalqının etnogenezisində axtarmaq lazımdır. Antik Armeniya ölkəsinin tarixinin bugünkü hay-erməni etnosu ilə tarixi bağları mövcud deyildir. Bugünkü hay-erməni etnosu qriqorian xristianlığını qəbul etmiş çeşidli millətlərə mənsub fərdlərin nəticələridir. Yəni, bugünkü hay-ermənilər prozelitik (dönmə) millət kimi təşəkkül tapmışlar. O da orta əsrlərin son dönəmində (Mustafa, Qurbanov, Əlili, 2018: 76).

Dünyanın "ağıllı milləti"nin heç ağlına da gəlməmişdir ki, Şərqdən Qərbədək yüzillər boyunca hökmranlıq etmiş türk millətinin izi, onların tarixi, mədəniyyəti torpağın üstündə və altında elə kök salmışdır ki, nəinki ermənilər, heç qasırğalar, tufanlar da onları yox edə bilməmişdir. Çünki, həqiqi tarix heç bir izin silinməsinə imkan vermir. Əgər bir quyuda su yoxdursa, nə qədər su töksən də o su quyusu olmayacaq. Əgər bulağın qarşısını kəsmək istəsən, sözsüz ki, o su mütləq başqa bir yerdən çıxacaq. Bu bir həqiqətdir ki, e.ə. V-VII minilliklərə aid Soyuqbulaq və Qarakilsə qayaüstü təsvirləri ilə Qobustan və Altaydakı qayaüstü təsvirlər arasındakı oxşarlıq, Nüvədi-Qarqadaşı yazıları ilə Orxon-Yenisey kitabələrinin dil və əlifba eyniliyi, qədim qala, saray və məbədlərin müxtəlif tarixi mənbələrdə əbədiləşən adları bu ərazilərin ən qədim dövrlərdən üzü bəri Türk-oğuz boylarının anayurdu olduğuna heç bir şübhə yeri qoymur (Ələkbərli, 2007: 5).

Məsələn, Q.Qeybullayevin yazdığına görə, ermənilərin "Göyçə gölü"nün adını dəyişib qoyduqları "Sevan" ifadəsi də erməni sözü deyildir. "Sevan" sözü qədim türk mənşəli "suv" (göl) sözündəndir. Ermənilər hələ bundan bixəbərdilər, onlar hesab edir ki, bu erməni sözü olmasa da, hər halda, türkcə deyildir. Xəbərləri yoxdur ki, daşıdıqları Aran, Vaçaqan, Yasay, Mamikon, Urnayir, Ohon, Sanatruk və s. IV-V əsrlərin qədim türk mənşəli Vaçağan, Asay, Mamiqun, Urnər, Vahan, Sanaturk şəxs adlarıdır. Əgər onlarda hünər varsa, "bala", "bəy", "can", "aqa", ata", "igid", "baba", "sarı" və s. Azərbaycan türk sözlərini əks etdirən, Aqayan, Balayan, Atayan, Babayan, İgityan, Dəmirçiyan, Saryan kimi onlarca soyadından imtina etsinlər (Səfərov, 2023: 31). Bu haqda tarixçilərimiz daha izahlı şəkildə məlumat verirlər.

*Ermənilərin beynini elə doldurublar ki, onların böyük əksəriyyəti hələ də uydurulmuş yalanlara inanırlar.* Onların öz tarixlərini saxtalaşdırıb şişirtməyə meyilli olduqlarını elə erməni tarixçilərinin özləri də etiraf edirlər. N*ecə deyərlər, ermənininin dilini elə erməni bilər. Məsələn, Xarkovda yaşayan erməni əsilli ictimai xadim, tarixçi, ədəbiyyatçı və bloger Filipp Ekozyantsın sosial mediyadan*

*izlədiyimiz çıxışları dediklərimizi sübut edir:* "Mən çoxdan bir maraqlı fakta diqqət kəsilmişəm. Bütün sivil dünya - ABŞ-dan tutmuş Çinə, İsraildən Norveçə kimi - Ermənistanı Ermənistan, erməniləri - erməni adlandırır. Ancaq dünyada bir azsaylı, cırtdan deyilə biləcək qədər kiçik bir xalq var ki, onun dilində "erməni" və yaxud ona az da olsa oxşayan başqa bir söz yoxdur. Nə qədər paradoksal olsa da, bu xalq - ermənilərdir. Onlar bütün dünyadan fərqli olaraq özlərinə "hay" deyir, öz Vətənlərini isə "Hayastan" adlandırırlar... Bizim heç bir başqa dövlətimiz gerçəkdə mövcud olmayıb. Varisi yalnız erməni xalqı olan dövlət də yüz faiz olmayıb. Mən yalnız təsdiqlənmiş və hamıya məlum olan faktlara əsaslanaraq öz keçmişimiz haqda həqiqətə inanıram" (Hüseynli, 2023: 10). O, müsahibəsində deyir: "Erməni xalqı bizim eranın XVI-XVII əsrlərində meydana gəlmişdir. Onun yaranmasının əlaməti fiziki-coğrafi vilayətlər idi: tələsik bu vilayətlərin əhalisini ermənilər adlandırmağa başladılar. Erməni xalqının qədimliyi konsepsiyasının tərəfdarlarının əsas arqumenti erməni dili idi, ancaq faktlar göstərir ki, erməni dili bizim eranın XV-XVII əsrlərində yaranmışdır, müvafiq olaraq erməni xalqı həmin vaxtdan tez meydana gəlməmişdir" (Aydınoğlu, 2023*).*

Azərbaycan xalqının deportasiyaya və soyqırıma məruz qalmasını ilk dəfə dahi öndər - Heydər Əliyev dünya ictimaiyyətinə çatdırmışdır. "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırım siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən – min illər boyu yaşadıqları öz doğma tarixi etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir"- deyən Azərbaycan Prezidenti Heydər Əliyevin unudulmuş yurd yerlərimizin yenidən tədqiq olunması, bu diyarda yaşayan soydaşlarımızın başına gətirilən məşəqqətlərin ətraflı şəkildə öyrənilməsi, saxtalaşdırılmış tariximizin bərpası, tarixi həqiqətlərin aşkara çıxarılması üçün qiymətli, əvəzsiz tarixi sənəddir (Hacıyev, 2012: 14).

Bu xalq bir çox tarixi əhvalatları daş lövhələrə yazmaqla, abidələrin üzərində kitabələr həkk etməklə bir sıra ictimai-iqtisadi problemlərə, mədəniyyət tarixinə aid çox zəngin və qiymətli salnamələr qoyub gedib. Bu abidələrin sirlərini açan tarixin daş yaddaşını danışdıran alim Məşədixanım Nemət hələ sovet dövründə qədim Azərbaycan torpağı olan Zəngəzur -Urud abidələrini erməni abidələri kimi qələmə vermək istəyən erməni tarixçilərini ilk susduran azərbaycanlı tarixçi kimi ad qazanmışdır. 1999-cu ildə Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi ilə əlaqədar Dövlət Komissiyasının iclasında Məşədixanım Nemətin Urud kəşfləri haqqındakı çıxışı ulu öndər Heydər Əliyevin böyük marağına səbəb olmuşdu. Ulu öndər buradakı tarixi çıxışında demişdi: "Biz ermənilərin bütün bu iddialarının əsassız, uydurma olduğunu beynəlxalq aləmdə sübut etməliyik. Bunun üçün əsaslı sənədlər, fundamental elmi, populyar nəşrlər yaranmalıdır. Biz Azərbaycanın ərazi bütövlüyünü nəinki yaşadığımız indiki illərdə, gələcək nəsillər üçün də qoruyub saxlamaqdan ötrü çox güclü bir konsepsiya yaratmalıyıq. Bundan sonra da elə əsərlər yaranmalıdır ki, o əsərlər indi Ermənistan Respublikası yerləşən həmin torpaqların Azərbaycana məxsus olmasını daim, ardıcıl surətdə sübut etsin" (Məmmədova, 2017: 9). Görünür, ulu öndərimiz məqsədimizə çatmaq üçün bir tarixçinin hansı çətinliklərə sinə gərməsini açıq-aşkar söyləmişdir. Onu deyə bilərik ki, ulu öndər bu sözləri deyərək bizi oğurlanmış torpaqlarımızı, mədəni irsimizi, sərvətlərimizi, hətta oğurlanmış adlarımızı geri almaq üçün haqq yolundan dönməməyə çağırıb.

Bunu Respublikamızın Prezidenti İlham Əliyev konkret, daha dolğun şəkildə demişdir: "Biz tarixi torpaqlarımızı da unutmamalıyıq və unutmuruq. Bu da gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı - bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təşkil olunur. Biz növbəti illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq" (Allahverdiyev, 2024). Prezidentimizin açıq şəkildə dediyi bu sözlərdən sonra ölkəmizdə Qərbi Azərbaycan mövzusunda canlanma yaşandı.

İllərdir erməni vəhşiliyinin qurbanı olan, tarixi torpaqlarından, yurd-yuvalarından zorla çıxarılan Qərbi Azərbaycanımızın vətəndaşları ruhlandı. Neçə illərdir köçkün həyatı yaşayan, Vətən həsrəti ilə alışıb yanan insanlarımız, eləcə də bütün soydaşlarımızın qəlbində Vətən müharibəsində qələbəmizdən sonra yeni bir ümid qığılcımı yarandı - bəli biz qayıdacağıq, biz qayıtmalıyıq. Ulu tariximizi dirçəltmək üçün, dədələrimizin, atalarımızın erməni vandalları tərəfindən dağıdılmış məzarlarını xilas edib yaralanmış ruhunu şad etmək üçün qayıtmaq bizim borcumuzdur.

Ermənilər isə vaxtilə azərbaycanlılardan öyrəndikləri yallıların adlarını dəyişərək, onlara yeni xoreoqrafik quruluş verərək oynamış və bu gün də bir çox dünya ölkələrinin səhnələrində erməni rəqsi kimi nümayiş etdirilir. Məsələn, Azərbaycanın ən qədim diyarlarından biri olan Naxçıvanda geniş yayılan “Köçəri” rəqsi Qərbi Azərbaycandan (indiki Ermənistandan) tamamilə deportasiya edilməmişdən əvvəlki zamanlarda soydaşlarımızın ifa etdikləri çox populyar rəqs olub. Adı türk mənşəli “köç” sözündən götürülən “Köçəri” rəqsinin ermənilərin milli rəqsi kimi qələmə verilməsinin elmi və tarixi əsasları yoxdur. Azərbaycan xalqına məxsus olan musiqi əsərləri, folklor nümunələri və digər qeyri-maddi mədəni irs nümunələri uzun illərdən bəri ermənilər tərəfindən zaman-zaman oğurlanılır, mənimsənilir və heç birinin mənşəyi göstərilmədən erməni nümunələri kimi təqdim olunur. “Erməni musiqisinin dahisi” kimi təqdim olunan S.Komitasdan , “məşhur “ erməni bəstəkarı A.Xaçaturyana ötürülən bu varislik, demək olar ki, bütün “erməni bəstəkarlar ordusu “ üçün bir ənənə şəklini alıb və bunu ermənilərin tanınmış nümayəndələri açıqca etiraf edirlər. Hələ 1868-ci ildə erməni ədəbiyyatşünası S.Palasanyan Sankt Peterburqda erməni dilində nəşr etdirdiyi “Erməni nəğmələri” adlı kitabında yazırdı ki, “biz hansı xalqın təsiri altında oluruqsa, onun mahnılarını da özümüzünkü hesab edirik və özümüzünkü kimi təqdim edirik” (Xalq Cəbhəsi, 2015: 15).

Azərbaycanın digər bölgələri kimi Qərbi Azərbaycan torpaqlarını, mədəniyyətini, incəsənətini mənimsəmək üçün ermənilər heç vaxt boş durmamış, insan xislətinə sığmayan üsullarla hərəkətə keçmişlər. Ermənilər bizim mahnımızı, musiqi alətlərimizi öz adlarına çıxmağa çalışsalar da alınmır, çünki o mahnılarda, o bayatılarda xalqımızın öz ruhu, öz duyğuları var. Ömürləri oğurluqla, saxtakarlıqla keçən ermənilər daha qədim xalq olmaq üçün hər zaman ulu keçmişi olan aşıq sənətimizi də mənimsəmək istəyib. Azərbaycan xalqının milli pasportu olan aşıq sənəti muğamlarımız, mahnılarımız kimi yad nəfəsi heç bir zaman qəbul etməyib. Aşıq sənəti də dövlətimizin mənəvi dayağıdır və dövlətimizin səyi nəticəsində düşmən əlindən xilas edilib. Xalq dastanlarımızın bəzi boy, qol, epik-lirik hissələri Qərbi Azərbaycanla bağlıdır. Bu da təsadüfi deyil. Çünki, Qərbi Azərbaycan da Azərbaycanın ərazisi, qədim türk-oğuz yurdunun bir hissəsidir. Burada məskunlaşmış soydaşlarımızın zəngin aşıq yaradıcılığı, dastançılıq, sənət ənənələri olmuşdur. Burada “Kitabi-Dədə Qorqud” eposu ilə ədəbi, tarixi-coğrafi bağlılıq, Koroğlu Məkanı Çənlibel dağları, “Qaçaq Nəbi” dastanında vəsf edilən çoxlu doğma el-oba, yurd yerimiz vardır. Bütün bunlar XX əsrin 88-90-cı illərində ermənilər tərəfindən didərgin salınmış soydaşlarımızın, onların ulu babalarının tarixi vətənidir. 1988-ci ildə havadarlarının köməyi ilə ermənilər Qərbi Azərbaycandan görünməmiş vəhşiliklə qətlə yetirdikləri saysız-hesabsız soydaşlarımız arasında aşıqlarımız, el şairlərimiz də var idi. Amansız təqiblər zamanı aşıqlarımız da talan edildi. Amma onlar çəkidə yüngül, qiymətdə isə ağır olan sazlarını özləri ilə götürdülər, onu düşmən təhqiri təhlükəsindən xilas edə bildilər ( Sazlı-sözlü Göyçə, 2002: 5).

## Nəticə

Tariximizin bu önəmli səhifələrini yaşatmaq üçün erməni yalanlarının ifşası davamlı olmalıdır. Artıq əsirlikdə olan torpaqlarımızla birgə mədəniyyətimizi də xilas etməliyik. Bunun üçün erməni işğalında olan yurd yerimiz - Qərbi Azərbaycanın mədəniyyətinin, folklorunun daha dərindən öyrənilməsi və təbliğ edilməsi qarşımızda duran ən vacib məsələdir. Qərbi Azərbaycanla bağlı tarixçilərimiz, ədiblərimiz, musiqiçilərimiz, bir sözlə bütün Azərbaycan övladları bu mübarizədə iştirak etməlidir. Unutmayaq ki, zəfər yalnız qol gücü ilə deyil, eyni zamanda biliklə, zəka ilə qazanılır. Bunun üçün tariximizi, mədəniyyətimizi dərindən, demək olar ki, ən başdan öyrənməliyik. Bir gün zəfər qazanacağımıza ürəkdən inanıram. Bu bizim haqqımızdır. Atalarımız demişkən, haqq nazilər, amma üzülməz.

## Ədəbiyyat

1. Allahverdiyev, C. (2024). *Qərbi Azərbaycan mətbuatı tarixi*. Səda.
2. Aydınoğlu, T. (2023). *Tarixi torpaqlarımız bizi gözləyir*. Xalq.
3. *Ermənistan Azərbaycanın qədim milli rəqslərinə də göz dikiblər*. (2015). Azərbaycan Müəllif Hüquqları Agentliyi "Köçəri" xalq rəqsi və erməni özününküləşdirmələri barədə arayış yayıb. Xalq Cəbhəsi.
4. Ələkbərli, Ə. (2007). *Qərbi Azərbaycan abidələri*. Nurlan.
5. Hacıyev, İ. (2012). *Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri*. Əcəmi.
6. Hüseynli, Q. (2023). *Erməni saxtakarlığı, uydurma tarix*. Respublika.
7. Məmmədova, Y. (2017). *Tarixin daş yaddaşını danışdıran alim*. İqtisadiyyat.
8. Mustafa, N., Qurbanov, A., Əlili, E. (2018). *Erməni saxtakarlığı. Yalan üzərində qurulan tarix*. Bakı.
9. *Sazlı-sözlü Göyçə*. (2002). Çinar-Çap.
10. Səfərov, Y. (2023). *Aşıq yaradıcılığında Qərbi Azərbaycan*. Əcəmi.

Daxil oldu: 15.06.2024
Baxışa göndərildi: 30.07.2024
Təsdiq edildi: 15.08.2024
Çap olundu: 30.08.2024

https://doi.org/10.36719/2789-6919/36/32-37

**Əbdülhüseyn Zamanov**
Naxçıvan Dövlət Universiteti
ebdul@gmail.com
https://orcid.org/0009-0003-2523-3505

# Modernləşən Naxçıvanın sənaye iqtisadiyyatı: tədarük zəncirinə sistemli yanaşma

**Xülasə**

Məqalədə qloballaşan dünyada ticarətin tədricən sərbəstləşdirilməsi rəqabətin və təşkilatların artması ilə yanaşı, daşıma yollarının uzanması sürət amilini önə çıxarmışdır. Qloballaşmanın hökm sürdüyü müasir dünyada iqtisadiyyat çox sürətlə istiqamət dəyişdirməkdədir. Bu, ilk növbədə, şirkətlərin müştəri məmnuniyyətini artırmaq üçün yol verilən itkilərin və nəqliyyat xərclərinin azaldılması ilə bu uğura nail olmağın tərəfdarıdırlar. Bütün bunlar isə tədarük zəncirinin düzgün qurulmasından xeyli asılıdır. Məqalədə əsas məqsədlərdən biri də tədarük zəncirinin sistemli idarə edilməsi prosesinə nəticə etibarilə maya dəyərini azaltmaq və xidmət səviyyəsini yaxşılaşdırmaq üçün təsirli təchizat zəncir strategiyaları, tədarük zəncirindəki müxtəlif səviyyələrdə qarşılıqlı əlaqələrdən istehlakçının zövqünə və tələbinə uyğun aşağı xərclə və vaxtında alıcılara çatdırılması əhəmiyyətindən bəhs edilmişdir.

Məqalədə Naxçıvan MR-in sosial-iqtisadi inkişafının yüksəldilməsi, özünün əlverişli coğrafi üstünlüklərindən və mövcud potensialından səmərəli istifadə etməklə ticarət dövriyyəsinə cəlb edilməsinə, tədarük zəncirinə sistemli yanaşmaqla xarici ölkələrlə beynəlxalq iqtisadi əlaqələri genişləndirməklə, müştəri razılığına nail olunması önəmindən bəhs edilmişdir.

Tədqiqat işində Muxtar Respublikada xarici ticarət və tədarük zənciri logistik xidmət və logistik mərkəzlərin yaradılmasının müasir vəziyyətinin tədqiqi problemlərinin öyrənilməsi və bu istiqamətdə işlərin aparılması bir məqsəd kimi qarşıya qoyulmuş və araşdırılmışdır. Həyata keçirilən siyasətin başlıca məqsədlərindən biri də xammal və işlənmiş məhsulların tranzit yükdaşımalar vasitələri ilə vaxtında keyfiyyətli çatdırılmasının təmin edilməsidir.

Elmi məqalədə logistik xidmət sektorunun inkişafı istiqamətində reallaşan kompleks və sistemli tədbirlərin, özəl bölmənin inkişafının sürətləndirməsi, bölgədə sahibkarlığın inkişafına əlverişli şəraitin, biznes mühitinin yaradılması, ixrac potensialının artırılması məsələləri də araşdırılmışdır.

***Açar sözlər:*** *Naxçıvan MR, tədarük zənciri, logistika, modernləşmə, yeni texnologiya, investisiya, nəqliyyat*

**Abdulhuseyn Zamanov**
Nakhchivan State University
ebdul@gmail.com
https://orcid.org/0009-0003-2523-3505

# The Industrial Economy of a Modernizing Nakhchivan: A Systematic Approach to the Supply Chain

**Abstract**

In the article, the gradual liberalization of trade in the globalized world, along with the increase of competition and organizations, the extension of transportation routes has brought forward the speed factor. In today's globalized world, the economy is changing direction very quickly. First of all these companies are in favor of achieving this success by reducing losses and transportation costs in order to increase customer satisfaction. All this depends on the proper construction of the supply chain. One of the main objectives of the article is the importance of effective supply chain strategies to reduce cost and improve service level, and to deliver to customers at low cost and on

Creative Commons Attribution-NonCommercial 4.0 International (CC BY-NC 4.0) 

time according to the taste and demand of the consumer from their interactions at different levels in the supply chain.

In the article, was discussed the importance of increasing the socio-economic development of Nakhchivan MR, attracting it to the trade cycle by effectively using its favorable geographical advantages and existing potential, expanding international economic relations with foreign countries with a systematic approach to the supply chain, and achieving customer satisfaction.

In the research work, the study of the modern state of foreign trade and supply chain logistics services and the creation of logistics centers in the Autonomous Republic, the study of problems and the conduct of work in this direction were set and investigated as a goal. One of the main goals of the implemented policy is to ensure timely and quality delivery of raw materials and processed products by means of transit freight.

In the scientific article, the complex and systematic measures implemented in the direction of the development of the logistics service sector, private issue of accelerating the development of the division, creating favorable conditions for the development of entrepreneurship in the region, creating a business environment, and increasing the export potential were also investigated.

***Keywords:*** *Nakhchivan MR, supply chain, logistics, modernization, new technology, investment, transport*

## Giriş

XX əsrin sonu Azərbaycan Respublikası ikinci dəfə öz tarixi müstəqilliyini əldə etdi və bazar iqtisadiyyatı yolunu seçdi. Bütün təhdid və çətinliklərə baxmayaraq ölkə daxilində əmin-amanlığı, sosial-iqtisadi inkişafın davamlılığını təmin edən, dövlət qanunçuluğu, hüquq qaydalarını möhkəmləndirən, islahatların həyata keçirilməsinin sürətləndirilməsinə təkan verən suveren dövlət yaradılmasına nail olundu. Seçilmiş düzgün strategiya əsasında ölkəmiz qısa vaxtda keçid proseslərini başa vurdu, sosial iqtisadi uğurlara imza atdı. Əldə edilmiş uğurlar davamlı inkişaf və makroiqtisadi sabitlik, cəmiyyəti labüd şəkildə modernləşməyə istiqamətləndirir.

İqtisadiyyatın modernləşməsi təkcə kəmiyyət baxımından deyil, həmçinin keyfiyyət baxımından təkmilləşdirməni, eyni zamanda məzmun baxımından da dəyişdirilməni əhatə edir. Bunun üçün isə, ilk növbədə, bazar iqtisadiyyatına keçid, iqtisadi mexanizmləri təkmilləşdirmək, infrastrukturu yaxşılaşdırmaq, iqtisadiyyata investisiyaların cəlbediciliyin artırmaq və sair tədbirlər sistemli və kompleks şəkildə həyata keçirilməlidir (Alıyev, Soltanlı, 2015: 242-243).

## Tədqiqat

Ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsi, tarazlı və davamlı inkişafın təmin edilməsi istiqamətində atdığı addımlar içərisində "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" də mühüm əhəmiyyət kəsb edir. Bu fərman milli iqtisadiyyatın inkişafı zəminində qarşıya qoyduğu strateji vəzifələrin yerinə yetirilməsi mənafeyinə uyğun olaraq qəbul edilmişdir. Ölkəmizin daxili siyasəti modernləşməyə əsaslanan iqtisadi potensialı, öz xalqına və millətinə sonsuz diqqət və qayğı ifadəsi olan meyarlara istiqamətləndirmişdir. Bunu isə, eyni zamanda yeni məzmunlu informasiya cəmiyyətinə keçid dövrü kimi də dəyərləndirmək mümkündür. Qloballaşan dünyada iqtisadi münasibətlərin dərinləşdiyi və genişləndiyi bir şəraitdə həyata keçirilən modernləşmə prosesi bazar subyektlərinin inkişafının əsas amili kimi çıxış edir. Bununla yanaşı, həmin proses həm milli, həm də transmilli müstəvidə çağdaş bazar münasibətlərinin təkmilləşməsinə təkan verir və elmi-texniki tərəqqi meyillərinin sürətlə artmasında əks olunur (2).

Bu illər ərzində Naxçıvan MR Ali Məclisi tərəfindən bir çox proqram, qərar və sərəncamlar qəbul edilmişdir. Ölkə Prezidenti tərəfindən 5 iyun 2023-cü ildə qəbul olunmuş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün dövlət proqramı" da uğurlu sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsidir. Bu proqram və qərarlarla iqtisadiyyatın müxtəlif istiqamətləri vahid dövlət proqramları çərçivəsində elmi-texniki tərəqqinin nailiyyətlərini nəzərə almaqla iqtisadi inkişaf sürətlənmiş, təsərrüfatçılıq mexanizmləri daha da təkmilləşmiş, regionda yeni sənaye müəssisələri yaranmış, yeni-yeni rəqabət qabiliyyətli məhsullar istehsal

olunmuşdur. İdxal olunan məhsulların xeyli hissəsi yerli məhsullar hesabına ödənilmiş, həmçinin ixracyönümlülüyün artırılması üçün geniş imkanlar açılmışdır (3).

Naxçıvan iqtisadi rayonunun bugünkü inkişafı baxımından demək olar ki, qloballaşma meyarlarına və modernləşməyə əsaslanan məqsədyönlü tədbirlər nəticəsində iqtisadiyyat şaxələndiriləcək, innovasiyalı iqtisadiyyata keçid təmin edilməklə iqtisadiyyatın bütün sahələrində dinamik artım əldə olunması üçün geniş imkanlar yaranacaqdır. Onu da bildirmək lazımdır ki, qloballaşmanın hökm sürdüyü müasir dünyada iqtisadiyyat çox sürətlə istiqamət dəyişdirməkdədir. Şirkətlər müştəri məmnuniyyətini artırmaq üçün yol verilən itkilərin və nəqliyyat xərclərinin azaldılması ilə bu uğura nail olmağın tərəfdarıdırlar. Bütün bunlar isə tədarük zəncirinin düzgün qurulmasından xeyli asılıdır.

Tədarük zənciri - hər hansı bir məhsulu və ya xidməti tədarükçüdən, istehlakçıya çatdırmaq üçün müxtəlif təyinatlı fəaliyyətlərlə məşğul olan müəssisələrdən, firmalardan, biznes təşkilatlarından, vətəndaşlardan, texnologiya avadanlıq, otel, restoran şəbəkələri, informasiya-kommunikasiya və sair resurslar sistemidir. Tədarük zəncirinin idarə edilməsi prosesinə ehtiyatlar, xammal və yarimfabrikatlar hazır məhsula çevrilərək istehlakçının zövqünə və tələbinə uyğun şəklə salınaraq çatdırılır. Tədarük zənciri çoxşaxəli funksiyanı yerinə yetirən bir şəbəkədir.

İlk növbədə bu şəbəkədə ehtiyatlar əldə edilir, onların istehsalat prosesində mövcud ehtiyatların əsasında hazır məhsula çevrilməsi, uyğun şəraitdə saxlanması, müştəri məmnuniyyətinin qorunması və logistika xidmətləri vasitəsi ilə istehlakçılara çatdırılır (4).

Dünya təcrübəsində tədarük zənciri bir-biri ilə əlaqəli 8 müxtəlif təyinatlı halqaların qarşılıqlı fəaliyyətinin məcmusudur.




Qloballaşmanın hökm sürdüyü müasir dünyada ticarətin tədricən sərbəstləşdirilməsi rəqabətin artması və xarici ticarət əlaqələrində təşkilatların sayının artması ilə yanaşı, daşıma yollarının uzanması sürət amilini önə çıxarmışdır. Bazar iqtisadiyyatına keçid şəraitində material axınının ilk təchizat mənbəyindən son istehlakçıya qədər ümumi hərəkətinin yeni metod və texnologiyalarla idarə edilməsini həyata keçirən yeni sistemin aşkar edilməsinə ehtiyac vardır. Bu da tədarük zəncirində logistika xidmətidir. Tədarük zəncirinin idarə edilməsinin bir hissəsini də logistika xidmətlərinin idarə edilməsi təşkil edir. Məhsul və xidmətlərin mənşə ölkəsi ilə istehlak nöqtəsi arasında müştərilərin arzu və istəklərini ödəmək üçün informasiya və məlumatlar əsasında səmərəli, effektiv irəliyə və geriyə axınının planlaşdırılması, həyata keçirilməsi və buna nəzarət olunmasıdır. Logistika təkcə məhsulun və xidmətin paylanması deyil, bu tədarük zənciri boyu ortaya çıxan bütün funksiyaları yerinə yetirir. Bu funksiyalar əsasən aşağıdakılardan ibarətdir (İmanov, 2005: 171-200).




Göründüyü kimi, tədarük zəncirinin idarə edilməsi dinamik və məsuliyyət, intizam tələb edən sahələrdən biridir. Bu sahədə muxtar respublikada bir sıra sistemli işlər görülmüşdür.

Aparılan araşdırmalar göstərir ki, son illər Naxçıvan iqtisadi rayonunun formalaşdırdığı dayanıqlı və etibarlı sosial-iqtisadi inkişaf göstəriciləri UDM-in həcmi 2022-ci ildə 2005-ci ilə nisbətən 9,7 dəfə, sənaye məhsullarının istehsal həcmi 25.4 dəfə artmış, pərakəndə əmtəə dövriyyəsinin həcmi 12,3 dəfə, bir nəfərə düşən ÜDM-in həcmi 7.9 dəfədən çox artmışdır. 2022-ci ildə ÜDM 2 milyard 990,1 milyon manata, ÜDM-in adam başına düşən həcmi 6440,1 manata çatmışdır (5).

Tarixi və iqtisadi inkişafın bütün mərhələlərində sənaye iqtisadiyyatın, lokomotivi olaraq qalmaqdadır. Regionda həyata keçirilən islahatların və sistemli kompleks tədbirlərin başlıca məqsədi qeyri-neft sektorunun və onun aparıcı sahəsi olan sənaye müəssisələrinin dayanıqlı və davamlı inkişafını təmin etməkdən ötrü, onların fəaliyyətinin bərpası, yenidən qurulması, yeni müəssisələrin yaradılması, sənaye məhsulunun artan istehsalının uğurlu nəticələrinə nail olmaq üçün, mövcud təbii ehtiyatları və potensial imkanları səfərbər etməklə sənayenin sürətli inkişafını təmin etməkdən ibarətdir. Muxtar respublika blokada şəraitinin çətinliklərinə baxmayaraq sosial iqtisadi quruculuq işlərində yaxından iştirak edir. Həyata keçirilən sistemli tədbirlərin nəticəsidir ki, regionda 2022-ci ildə sənaye məhsulu 2005-ci ilə nisbətən 75,5 dəfə çox, 2005-ci illə müqayisədə 25,4 dəfə çox, 2015-ci ilə nisbətən 11,4 % çox, 2020-ci ilin müvafiq dövründən 1,0 % çox olmaqla 2022-ci ildə 1 milyard 048,5 milyon manat həcmində istehsal edilmişdir. Son illərdə Muxtar Respublikada yeni sənaye sahələrinin yaradılması istiqamətində aparılan tədbirlər nəticəsində sənaye müəssisələrinin sayı 109, çalışanların orta sayı isə 17087 nəfər olmuşdur (5).

Dünyada baş verən qlobal hadisələr bazar şərtlərini dəyişdirməkdədir. Bu şərtlər daxilində müəssisələr xərclərin azaldılması, qənaət edilməsi və yol verilən itkilərin minimuma endirilməsi üçün səy göstərirlər. Müəssisələr elm və texnologiyanın ən yeni nailiyyətlərindən istifadə etməklə və digər vasitəçilərlə birlikdə yaradılan tədarük zənciri vasitəsilə məhsul və xidmətlərin istehlakçılara çatdırılmasını təmin etməlidilər.

Tədarük zəncirinə təsir göstərən amillərin ən başlıcası iqtisadi zonanın, təbii iqlim şəraiti, ipək yolunun üzərində yerləşməsi, təbii ehtiyat mənbələri və onlardan səmərəli istifadə olunmasıdır. Ötən dövr ərzində, regionda mineral sular zavodu, sement zavodu, kərpic zavodu, travertin daş üzləmə zavodu, plastik qapı pəncərə, gəc istehsalı sexləri, avtomobil zavodu, kənd təsərrüfatı məhsulları istehsalı və emalı müəssisələri, yüksək keyfiyyətli tikinti materialları, ekoloji cəhətdən təmiz təbii duzu, emal müəssisələri və s. elm-texnikanın ən yeni nailiyyətləri əsasında qurulmuşdu (7).

Əlverişli yol logistikanın düzgün təşkil olunması və logistik xərclərin, itkilərin azaldılması ilə bu uğura nail olmaq mümkündür. Müasir texnologiyanın və innovativ avadanlıqlarla modernləşməni həyata keçirməklə, sürətli və davamlı logistik xidməti yaradılmalıdır. Logistika

məlumatlarının hərəkəti zənciri istiqamətində muxtar respublikada bu yöndə bir sıra işlər görülmüşdür. Belə ki, Naxçıvan Beynəlxalq Hava Limanında yeni uçuş-enmə zolağının qurulması, Naxçıvan-Culfa 30 kilometr, Naxçıvan-Culfa-Ordubad 50 kilometr, Naxçıvan-Şahbuz-Batabat 80 kilometr avtomobil yolunun və s. rayonların ərazisinə 880 kilometr uzunluğunda avtomobil yolları, yenidən qurulması, İran İslam Respublikası ilə Naxçıvan arasında dəmir yol xəttinin istifadəyə verilməsi, Culfa stansiyasında İstismar Vaqon Deposunun təmiri sexinin tikintisi, Ordubad dəmir yolu stansiyasının təmiri, Qars-İğdır-Aralık-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu xəttinin tikintisini sahibkarlarımız ən yaxşı şəkildə dəyərləndirəcəklər. Bütün bu işlər tədarük zəncirinə qoşulmaq istiqamətində ixracatçılarımıza böyük töhfə verəcəkdir (8).

Tədarük zəncirinə təsir göstərən amillərdən biri də anbarlamadır. Muxtar Respublikada aparılan kompleks tədbirlər nəticəsində bir sıra işlər görülmüşdür. Belə ki görülən işlərin sırasında yaradılmış taxıl anbarını da qeyd etmək lazımdır. İllik istehsal gücü 73 min ton olan un dəyirmanı, "Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi" MMC-in nəzdində fəaliyyət göstərən tutumu 27 min tona malik uzunmüddətli və tutumu 20 min tona malik qısamüddətli taxıl ehtiyatı anbarlarının, ümumi tutumu 15 min 945 ton olan 38 soyuducu anbarlar tikilib istifadəyə verilmişdir. Naxçıvan, Culfa, Şahtaxtı (Başbaşı) depoları sovet dönəmindən fəaliyyət göstərir. Bu depoların ərazisində 100 hektarlarla boş sahələr olmaqla, tədarük halqasında əlavə dəyər yaradılması üçün mühüm əhəmiyyətə malikdir.

Regionda davamlı iqtisadi inkişafın əsası elmi-texniki tətbiqə və yeni modern texnologiyalarla silahlanmaya əsaslanır. Gücü 80 meqavat olan Naxçıvan modul elektrik stansiyasının tikintisi, Vayxır, Biləv, Arpa çay, Ordubad su elektrik stansiyalarının tikintisi, Babək, Qabıllı, Culfa günəş elektrik stansiyalarının tikintisi və digər infrastrukturların yaradılması iqtisadiyyatın gələcək istiqamətlərinin müəyyən edilməsində əsas rol oynayır.

Tədarük zəncirində əsas faktorlardan biri də iqtisadi rayonun potensial imkanlarını daha da genişləndirməklə bir çox investisiyalar üçün açıq olmasıdır. Naxçıvan MR-da keçən 2021-ci ildə maliyyə qurumları tərəfindən iqtisadi fəaliyyətin müxtəlif sahələrinə 235 milyon 283 min manat kredit verilmiş və bu istiqamətdə bir çox biznes və xidmət sahəsi istifadəyə verilmişdir. 2021-ci ildə sahibkarlara 38 milyon manat kredit verilmişdir. Bu kreditin 13 milyon 875 min manatı yeni istehsal sahələrinin yaradılmasına və genişləndirilməsinə, 24 milyon 161 min manatı isə fərdi sahibkarlığın inkişafı üçün sərf olunmuşdur (9).

Naxçıvan MR-in logistika mərkəzinə çevrilməsi üçün zəruri şərtlərdən biri də nəqliyyat kommunikasiya xidmətlərindən istifadə və bölgənin azad iqtisadi zonaya çevrilməsidir. Naxçıvanın uzun müddət blokada şəraitində olması və beynəlxalq bazarlara çıxışının olmaması ən başlıca problemlərdəndir. Regionda istehsal olunan yüz növ və çeşiddə olan məhsulun xarici ölkələrin bazarlarına çıxışı məhduddur, bunun da əsas səbəbi blokadadır.

27 sentyabr 2020-ci ildə Azərbaycanın şanlı qəhrəman ordusu 44 günlük müharibə ərzində erməni ordusu üzərində tarixi qələbə qazanaraq Ermənistanın Dağlıq Qarabağ ətrafında işğal etdiyi Azərbaycan torpaqlarını azad etdi. Azərbaycan Ermənistan və Rusiya arasında üç tərəfli bəyanat imzalandı. Bəyanatın 9-cu bəndinə əsasən Azərbaycanla Naxçıvan arasında Zəngəzur dəhlizinin açılması kommunikasiya xətlərinin (dəmir yolu, avtomobil yolu və s.) fəaliyyət göstərməsi öz əksini tapmışdır.

- ✓ Zəngəzur dəhlizinin açılması, Türkiyə-Naxçıvan dəmir yolu xəttinin çəkilməsi bu problemləri aradan qaldıracaq və Muxtar Respublika özünün mövcud potensialından səmərəli istifadə etməklə xarici ölkələrlə beynəlxalq iqtisadi əlaqələri genişləndirməklə yeni inkişaf mərhələsinə qədəm qoyacaqdır.
- ✓ Türkiyə Cümhuriyyətinə birbaşa yolun olması həm xammalın asanlıqla qəbul edilməsini, həm də ixrac olunan məhsulun asanlıqla göndərilməsini təmin edəcəkdir.

Müasir dövrdə, istehsal və istehlak nöqtələri arasında tədarük zənciri boyu idarə edilmənin yaradılması istiqamətində xeyli işlər görülmüşdür. İxracatçılarımız yeni texnologiya və innovativ avadanlıqlarla modernləşməni həyata keçirməklə qarşıya qoyulan hədəflərə doğru inamla irəliləməkdədirlər.

## Nəticə

Aparılan tədqiqatları, araşdırmaları, müşahidələri ümumiləşdirərək aşağıdakı nəticəyə gəlmək olar:

- ✓ Naxçıvan iqtisadi zonası yeraltı və yerüstü sərvətlərlə zəngin bir diyardır. Bu ehtiyatlardan səmərəli istifadə etməklə yüksək nailiyyətlər əldə etmək üçün xarici iqtisadi əlaqələrin inkişaf etdirilməsi məqsədi ilə tədarük zəncirinə sistemli yanaşma həyata keçirilməlidir;
- ✓ Naxçıvan MR-in blokadadan çıxması, Zəngəzur dəhlizinin açılması, Qars-Naxçıvan dəmir yolu xətti, Gömrük sadələşdirmələri, investisiyanın cəlbi logistik xidmətlər üçün geniş imkanlar açacaqdır;
- ✓ Tədarük zəncirinin səmərəli təşkili sahəsində dünya təcrübəsindən və xarici ekspertlərlə əməkdaşlıqların mütəmadi olaraq aparılmasın təşkil etmək;

Bütün bunlar isə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının inkişaf yolunda olduğunu göstərir, iqtisadiyyatın şaxələndirilməsi sosial iqtisadi inkişafa müsbət təsir göstərməklə bölgə əhalisinin rifahının yüksəlməsinə, əhalinin yaşayış səviyyəsinin daha da yaxşılaşmasına töhfəsini verməklə bərabər, prioritet məsələlərin həllində də öz əhəmiyyətini bir daha yaxşı istiqamətdə göstərməkdədir. Bütün bunlar onu göstərir ki, bizi gələcəkdə modernləşmiş Naxçıvan gözləyir.

## Ədəbiyyat

1. Alıyev, İ., Soltanlı, İ. (2015). *Aqrar sahənin modernləşməsi dönəmində rəqabət qabiliyyətliliyinin təmin olunması problemləri*. Elm.
2. *Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi.*
3. Azərbaycan Respublikası Prezidentinin "*Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı*". 5 iyun 2023-cü il.
4. Copyright © 2011 Naxçıvan MR Ali Məclisi. All rights reserved
5. C:/Users/asus/Desktop/loqistika
6. İmanov, T. (2005). *Logistikanın əsasları*. Təhsil.
7. http: www.yap.org.az/az/view/nevs/41041/
8. http://serqqapisi.az/index.php/iqtisadiyyat/29062
9. *Naxçıvan MR DSK sosial iqtisadi göstəricilər*. http://www.statistika.nmr.az/

Daxil oldu: 12.06.2024
Baxışa göndərildi: 31.07.2024
Təsdiq edildi: 14.08.2024
Çap olundu: 30.08.2024

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

https://doi.org/10.36719/2789-6919/36/38-43

**Qumru Balaxanova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
19_bq_91@mail.ru

# Trichoderma cinsinə aid göbələk növlərinin antoqonist xüsusiyyətlərinin qiymətləndirilməsi

**Xülasə**

Aparılan tədqiqatlardan aydın olmuşdur ki, Trichoderma cinsinə aid göbələklərin bioloji aktivliyi torpaq tipindən, hidrotermiki rejimdən və həmin biotopa xas olan mikobiotanın tərkibindən asılıdır və konkret şəraitdə həmin yerdən ayrılan ştammın istifadəsi daha effektli olur. Bunu nəzərə alaraq tədqiqatların gedişində Trichoderma cinsinə aid göbələk növlərinin antoqonist xüsusiyyətlərinin qiymətləndirilməsi məqsədəuyğun hesab edilmişdir. Tədqiqatların sonrakı mərhələsində Trichoderma cinsinə aid olan göbələklərin boy maddəsi sintez edib etməməsi ilə bağlı olmuşdur.

Tədqiqatlar nəticəsində sübut olunmuşdur ki, bu göbələklər təbii parçalanma və bioremediasiya agentidir. Son işlərin nəticəsində Trichodermanın pestisidləri və herbisidləri təhlükəsizləşdirən qabiliyyəti aşkar edilmişdir. Bu xüsusi qabiliyyət kənd təsərrüfatı sənayesinə çirklənmə ilə bağlı məsələlərin öhdəsindən gəlmək üçün üstünlük verir.

Bütün bunlar göstərir ki, Trichoderma bitki böyüməsini stimullaşdıran, bitki xəstəliklərinin bioloji nəzarət, təbii parçalanma agentidir. Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Trichoderma cinsinə aid olan göbələklərin yüksək antoqonistlik aktivliyə malik olan növləri eyni zamanda antibiotik aktivliyə malik birləşmələrdə sintez edə bilir ki, onlardan da T.asperellum və T.harzianum kimi növünə aid ştamların sintez etdikləri güclü antimikrob aktivliyə malikdir.

***Açar sözlər:*** *Trichoderma, mikroorqanizmlər, torpaqəmələgəlmə, ekosistem, göbələklər*

**Gumru Balakhanova**
Azerbaijan State Pedagogical University
19_bq_91@mail.ru

# Evaluation of Antagonist Properties of Fungus Species Belonging to the Genus Trichoderma

**Abstract**

It was clear from the researches that the biological activity of Trichoderma fungi depends on the type of soil, hydrothermal regime and the composition of the mycobiota specific to that biotope, and the use of the strain isolated from that place is more effective in specific conditions. Considering this, in the course of the research, it was considered appropriate to evaluate the antagonistic properties of the fungi of the Trichoderma genus. At the next stage of the research, it was related to whether the fungi belonging to the genus Trichoderma synthesize the growth substance.

As a result of research, it has been proven that these mushrooms are natural decomposition and bioremediation agents. As a result of recent studies, the ability of Trichoderma to protect pesticides and herbicides has been revealed. This special ability gives the agricultural industry an advantage in dealing with pollution issues.

All this shows that Trichoderma is a plant growth stimulant, biological control of plant diseases, natural decomposition agent. As a result of research it was determined that the species of fungi

Creative Commons Attribution-NonCommercial 4.0 International (CC BY-NC 4.0) 

belonging to the genus Trichoderma with high antagonistic activity can synthesize compounds with antibiotic activity, of which strains belonging to the genus T. asperellum and T. harzianum have strong antimicrobial activity.
***Keywords:*** *Trichoderma, microorganisms, soil fertility, ecosystem, fungi*

## Giriş

Torpaq tərkibinə görə mürəkkəb sistemdir. Torpaq, ümumiyyətlə, bərk, maye və qaz olmaqla üç fazadan və canlı orqanizmlərdən ibarətdir. Məhsuldarlığı isə onun münbitliyindən asılıdır. Torpağın ən üst qatının rəngi daha tünddür. Torpağın üst qatında bitkilərin köklərinə, çürümüş bitki qalıqlarına, eləcə də yağış qurdlarına, həşərat və başqa heyvan qalıqlarına təsadüf edilir. Bu qatlar mikroorqanizmlərin təsirilə parçalanaraq çürüntü təşkil edən maddələri əmələ gətirir. Həmin çürüntü köklərlə birlikdə torpağın rəngini tündləşdirir. Alt qatlarda çürüntü və bitkilərin kökləri nisbətən azalır. Ona görə də alt qatlarda torpağın rəngi üst qatdan açıq olur. Torpağın alt qatlarında, adətən, qum, gil və daşlar olur. Hər bir torpaqda çürüntü vardır, bununla da o, dağ süxuru, qum və ya gildən fərqlənir. Tərkibində çürüntü çox olan torpaqların rəngi qara olur. Belə torpaqlar qaratorpaq adlanır. Qaratorpaq rütubəti yaxşı saxlayır, tərkibində qida maddələri çox olur. Çürüntü maddələri ilə zəngin olan torpaq münbit sayılır. Münbit torpaqlardan həmişə yüksək və sabit məhsul əldə edilir (Balaxanova, 2021: 63).

Torpaqəmələgəlmədə mikroorqanizmlərin rolu böyükdür. Həyat fəaliyyətləri prosesində orqanizmlər torpaqəmələgəlmənin çox əhəmiyyətli həlqəsi olub üzvi maddələrin sintezi və parçalanmasına, bioloji əhəmiyyət kəsb edən elementlərin konsentrasiyasına, mineralların parçalanması və yenilərinin yaranmasına, torpağın əsas xassəsi olan münbitliyin formalaşmasına müsbət təsir göstərir. Torpaqda müxtəlif qrup mikroorqanizmlər (bakteriyalar, göbələklər, aktinomisetlər) və yosunlar inkişaf edir. Mikroorqanizmlərin miqdarı 1q torpaqda milyondan milyarda qədər dəyişir (7). Rütubətli torpaqlarda mikroorqanizmlərin miqdarı daha çox olur.

## Tədqiqat

Torpaq tərkibinə görə mürəkkəbdir. Bunu aşağıdakı təcrübələrlə sübut etmək olar. Əgər bir parça qaratorpağı alovda közərtsək, onun tərkibində olan bitki qalıqları, çürüntülər yanacaq, yerdə torpağın bir qədər açıq rəngli külü qalacaqdır. Deməli, torpağın qara olması onun tərkibindəki çürüntünün miqdarından asılıdır.

Təcrübəni davam etdirək. Közərdilmiş torpağın bir hissəsini stəkana töküb, üzərinə su əlavə edək. Bu suyun rəngi bulanacaqdır. Bulanmış suyu başqa stəkana süzüb kənara qoyaq. Əvvəlki stəkanın dibindəki çöküntünü bir neçə dəfə yusaq, onun dibində təmiz qum qaldığını görərik. Bulanıq su tökülmüş stəkanı bir neçə saatdan sonra nəzərdən keçirsək, suyun durulduğunu və gilin stəkanın dibinə çökdüyünü müşahidə edərik. Deməli, torpağın tərkibində çürüntüdən başqa qum və gil də vardır (8). Suyu bulandıran da gildir.

İndi yenə közərdilmiş torpağın qalan hissəsini stəkana töküb üzərinə su əlavə edək və su durulana qədər gözləyək. Durulmuş suyu başqa təmiz bankaya boşaldıb süzgəc kağızından süzək. Alınmış suyu çini qaba töküb buxarlandıraq. Su buxarlanıb qurtardıqdan sonra qabın dibində ağ rəngdə ərp qalacaqdır. Bu, torpaq suyunda həllolmuş və süzgəc kağızından süzülən duzlardır. Torpaqda həmçinin su və hava da vardır. Suyun olmasını əl ilə hiss etmək olar. Əgər suya bir parça quru torpaq atsaq, ondan hava qabarcıqları çıxmağa başlayacaqdır. Bu da torpağın içərisindəki havadır. Deməli, torpağın tərkibində çürüntü, qum, gil, mineral duzlar, su və hava vardır (9). Onların miqdarı ayrı-ayrı torpaqlarda müxtəlifdir.

Çürüntü çox olan torpaqlar münbit torpaqlardır. Qum çox olan torpaqlar qumlu, qumsal, gil çox olan torpaqlar isə gilli torpaqlar adlanır.

Torpağın tərkibində su çox olduqda bataqlığa çevrilir, mineral duzlar çox olduqda şoranlaşır, əkin üçün yararsız olur. Respublikamızın bəzi düzənlik rayonlarında torpağın tərkibində xörək duzu və başqa duzlar da həddindən çoxdur. Həmin duzlar mədəni bitkilər tərəfindən mənimsənilir və bitkiyə mənfi təsir göstərir. Belə sahələr əkin üçün yararsızdır. Şoran torpaqları yararlı hala salmaq üçün geniş meliorasiya işləri görülür (10). Bu məqsədlə şoranlaşmış torpaqlarda dərin kanallar çəkilir, torpaqdakı artıq duzlar yuyularaq həmin kanallar vasitəsilə axıdılır.

Münbit torpaq qatı uzun illər ərzində ona, müxtəlif bitki və heyvan qalıqlarının, çürüntülərinin qarışması nəticəsində əmələ gəlir. Ona görə də torpaqdan düzgün istifadə edilməsinin və onun mühafizə olunmasının böyük əhəmiyyəti vardır. Belə ki meşələrin qırılması, çəmənliklərin düzgün istifadə edilməməsi torpağın aşınmasına, yəni onun münbit qatının su və külək vasitəsilə yuyulub aparılmasına səbəb olur (11).

Respublikamızdakı torpaq sahələrinin çox hissəsi quraqlıq rayonlardadır. Bu rayonlarda torpağın suvarılması kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını 2-3 dəfə artırır. Bəzi torpaqlarda həddindən artıq rütubət olduğundan bataqlığa çevrilir. Bu zonalarda yüksək məhsul almaq üçün torpağı qurutmaq lazımdır (Balaxanova, 2020: 29).

Boz-qonur torpaq mühitində yaşayan mikromisətlərin bioloji funksiyalarını və potensial tətbiq sahələrini araşdırmaq məqsədini güdür. Belə bir tədqiqatın əsas aspektləri bunlardır:

**1. Mikromisətlərin tanınması və yığılması**

- **Torpaq nümunələrinin toplanması:** Boz-qonur torpaqlardan nümunələr toplanır.
- **Mikromisətlərin izolyasiyası:** Torpaq nümunələrindən mikromisətlər laboratoriya şəraitində izolyasiya edilir.
- **Kataloqlaşdırma:** İzoeasiyadan sonra mikromisətlərin identifikasiyası və kataloqlaşdırılması aparılır.

**2. Bioloji aktivliklərin tədqiqi**

- **Antibiotik təsirinin ölçülməsi:** Mikromisətlərin antibakterial, antifungal və antivirus aktivlikləri test edilir.
- **Enzim aktivlikləri:** Mikromisətlərin müxtəlif enzim fəaliyyətləri (məsələn, selülaz, xilanaz, amilaz) öyrənilir.
- **Toksinlər və metabolitlər:** Mikromisətlərin istehsal etdiyi toksinlər və metabolitlərin bioloji təsirliyi təhlil edilir.

**3. Ekoloji və bioteknoloji tətbiqlər**

- **Torpaq sağlamlığı:** Mikromisətlərin torpaq sağlamlığı və məhsuldarlığına təsiri qiymətləndirilir.
- **Bioremediasiya:** Çirklənmiş mühitlərin təmizlənməsi məqsədilə mikromisətlərin rolu araşdırılır.
- **Biopestisitlər və bioloji məhsullar:** Mikromisətlərin biopestisitlər və digər bioloji məhsullar istehsalında istifadəsi mümkünlüyü öyrənilir.

**4. Tədqiqatın əhəmiyyəti və gələcək perspektivlər**

- **Ətraf mühitə təsir:** Tədqiqat nəticələrinin ətraf mühitin qorunması və ekosistemlərin sağalması üçün potensial istifadəsi.
- **Yeni mühəndislik imkanları:** Mikromisətlərin biotexnologiya sahəsində yeni tətbiq imkanları.

Göbələklər – heterotrof mikroorqanizmlərdir. Göbələklər, bioloji sistemlərdə mühüm rol oynayan, çoxşaxəli və müxtəlif həyat formalarını əhatə edən orqanizmlərdir. Onlar əksər ekosistemlərin vacib komponentləri olaraq torpaq sağlamlığını, bitki inkişafını və bioloji dövranı təmin edirlər. Göbələklərin tədqiqi, onların biologiyası, ekologiyası və müxtəlif tətbiq sahələri ilə bağlı geniş bir mövzu sahəsini əhatə edir (Balakhanova, 2022: 3). Göbələklər müxtəlif biotexnoloji və iqtisadi sahələrdə geniş istifadə olunur:

- **Kənd təsərrüfatı:** Göbələklərin bitki mühafizəsi və torpaq sağlamlığı sahəsində tətbiqləri, xüsusilə mykorrizal göbələklərin istifadəsi, məhsuldarlığı artırmaq üçün istifadə olunur.
- **Qida sənayesi:** Maya göbələkləri, çörək, pivə və digər fermentasiya məhsullarının istehsalında geniş istifadə edilir.
- **Tibbi tətbiqlər:** Göbələklərdən alınan bir sıra antibiotiklər (məsələn, penicillium) və digər dərman maddələri müasir tibdə geniş istifadə olunur. Eyni zamanda, bəzi göbələk növləri xərçəng və digər xəstəliklərin müalicəsi üçün tədqiq edilir.
- **Ekoloji tətbiqlər:** Göbələklərin bioremediasiya (çirklənmiş mühitlərin təmizlənməsi) proseslərində istifadəsi, ətraf mühitin qorunmasına kömək edir.

Göbələklər üzvi birləşmələrin minerallaşmasında və humuslaşmasında fəal iştirak edir. Bu zaman parçalanma prosesində bir qrup göbələkləri ardıcıl olaraq başqa qrup göbələklər əvəz edə bilər.

Göbələklər müxtəlif üzvi turşular (limon, oksalat, sirkə və başqa turşuları) sintez edir. Onların ardıcıl fəaliyyəti fulvo turşulu humusun yaranmasına gətirib çıxarır (Baxşəliyeva, 2017: 27). Göbələklərin bu qabiliyyəti onların mineralları fəal parçalmaq qabiliyyətində də özünü göstərir. Bu xarakteristikaya uyğun göbələklərdən biri də Trichoderma cinsinə mənsub olan göbələklərdir.

Bu göbələk eyni anda üç faydalı xüsusiyyətə malikdir.

Patogenləri və zərərvericiləri məhv edir. Çoxalaraq, trichoderma xüsusi antibiotiklər ifraz edir: gliotoksin, satsukkalin, trichodermin, viridin, bir çox xəstəliklərin patogenlərini öldürür. Gec zərərverici, toz küf, küf, boz çürük, qəhvəyi ləkə ilə asanlıqla mübarizə aparır. Üzümdə küf və oidiumları məhv edir. Kartof rizoktoniozunun öhdəsindən gəlir (Muradov, 2021: 17). Təcrübələr göstərmişdir ki, məsələn, xiyarlarda Trichoderma istifadəsi onların ağ çürüklərə yoluxmasını 3 dəfə azaldır və məhsuldarlığı 34,5% artırır.

Bundan əlavə, Trichoderma metabolitlərinin zərərvericilər də daxil olmaqla, həşəratların həyati fəaliyyətini azaltdığını göstərən tədqiqatlar aparılmışdır.

Torpağı qida maddələri ilə zənginləşdirir. Torpaqda çoxalaraq, bu göbələk üzvi maddələri aktiv şəkildə parçalayır, qida maddələrini buraxır: azot, fosfor və kalium. Və bitkilər üçün əlçatan bir formada. Gübrəyə qənaət edə bilərsiniz.

Bitkilərin böyüməsini stimullaşdırır və toxunulmazlığını artırır. Bütün bunlar Trichodermanın bitkilərdə hüceyrə şirəsi istehsalını aktivləşdirməsi ilə əlaqədardır. Nəticədə xəstəliklərə qarşı əlavə müqavimət əldə edir və daha yüksək məhsul verirlər.

**Trichoderma** cinsinə aid göbələklər, mikroskopik göbələklər arasında əhəmiyyətli bir qrupdur. Bu cins, torpaqda və digər mühitlərdə geniş yayılmışdır və həm kənd təsərrüfatı, həm də biotexnologiya sahələrində bir sıra əhəmiyyətli funksiyaları ilə tanınır. Aşağıda Trichoderma cinsinin xüsusiyyətləri, əhəmiyyətli növləri və tətbiq sahələri haqqında ətraflı məlumat təqdim olunur:

**Trichoderma cinsinin ümumi xüsusiyyətləri**

1. **Morfologiya:**
   - Trichoderma göbələkləri əsasən çoxhüceyrəlidir və saprofitlərdir (ölmüş orqanizmləri parçalayan).
   - Onların sporları müxtəlif şəkillərdə ola bilər, məsələn, təkhüceyrəli konidiyalarda (sporların yayılma formaları) və ya uzun lifli konidiyoforlarla yaranır.
2. **Kultura şəraiti:**
   - Trichoderma cinsinin göbələkləri müxtəlif mühitlərdə inkişaf edə bilir, o cümlədən torpaqda, çürümüş bitki materiallarında və digər üzvi maddələrdə.
   - Onlar laboratoriya şəraitində müxtəlif qida mühitlərində, məsələn, PDA (Potato Dextrose Agar) mühitində asanlıqla yetişdirilir.
3. **Bioloji aktivlik:**
   - Trichoderma göbələkləri geniş spektrli antifungal aktivlik nümayiş etdirir, yəni digər göbələk patogenlərinə qarşı mübarizə aparır.
   - Onlar həmçinin torpaq sağlamlığını artıran və bitki köklərinin inkişafını stimullaşdıran mykorrizal əlaqələr qurur.

**Trichoderma cinsinə aid əsas növlər**

1. **Trichoderma harzianum:**
   - **Xüsusiyyətlər:** Bu növ, bitki köklərində patogenlərə qarşı güclü antifungal təsir göstərir.
   - **Tətbiqləri:** Kənd təsərrüfatında bitki xəstəliklərinə qarşı biopestisit kimi istifadə olunur.
2. **Trichoderma viride:**
   - **Xüsusiyyətlər:** Bu növ müxtəlif torpaq mühitlərində və bitki materiallarında yayılır. O, xüsusilə torpaqda orqanizmlərin parçalanmasına kömək edir.
   - **Tətbiqləri:** Torpaq sağlamlığını artırmaq və bitkiləri mühafizə etmək üçün istifadə olunur.

3. **Trichoderma reesei:**
   - **Xüsusiyyətlər:** Selülaz istehsalında geniş istifadə olunur, çünki bu növ selülaz fermentlərini yüksək miqdarda istehsal edir.
   - **Tətbiqləri:** Biotexnologiyada selülaz fermentlərinin istehsalında istifadə olunur, xüsusilə biokütlə işlənməsi və lignoselüloz materialların təkrar emalı üçün.
4. **Trichoderma atroviride:**
   - **Xüsusiyyətlər:** Bu növ, həmçinin bitki xəstəliklərinə qarşı antifungal aktivlik göstərir və torpaq sağlamlığını artırır.
   - **Tətbiqləri:** Kənd təsərrüfatında bitkilərin qorunması və torpaq şəraitinin yaxşılaşdırılması məqsədilə istifadə olunur.

**Tətbiq sahələri**

1. **Biopestisitlər:**
   - Trichoderma cinsinə aid göbələklər, bitki patogenlərinə qarşı təbii mübarizə vasitəsi kimi istifadə olunur. Bu göbələklər, zərərvericilərə və xəstəliklərə qarşı mübarizədə effektivdir.
2. **Torpaq Sağlamlığı:**
   - Trichoderma göbələkləri torpaqda bioloji aktivliyi artırır, orqanizmlərin parçalanmasını sürətləndirir və bitkilərin kök sistemlərinin inkişafını təşviq edir.
3. **Biotexnologiya:**
   - Selülaz istehsalı və digər fermentlərin tətbiqi üçün Trichoderma növləri, sənaye proseslərində istifadə olunur. Bu göbələklərin fermentativ aktivliyi, biokütlə və digər üzvi maddələrin emalında geniş istifadə olunur.
4. **Ekoloji Tətbiqlər:**
   - Trichoderma göbələkləri ətraf mühitin təmizlənməsi və çirklənmiş mühitlərin bərpası üçün bioremediasiya proseslərində istifadə edilir.

**Gələcək araşdırmalar və perspektivlər**

Trichoderma cinsinə aid göbələklərin bioloji və ekoloji tədqiqi davam edir. Gələcəkdə bu göbələklərin yeni növlərinin kəşfi, onların genetik və molekulyar xüsusiyyətlərinin öyrənilməsi, eləcə də müxtəlif tətbiq sahələrində istifadə imkanlarının artırılması məqsədilə tədqiqatlar davam etdiriləcək. Bu tədqiqatlar, həm kənd təsərrüfatı, həm də biotexnologiya sahələrində yeni və innovativ həllərin inkişafına yol açacaq.

**Tədqiqat:**

Trichoderma cinsinə aid göbələklərdən yalnız 4 növ T.asperellum, T.harzianum, T.hamatum, T.viride Azərbaycanın bütün ərazilərində yayılma qabiliyyətinə malikdir. Buna baxmayaraq, bütün növlərin hamısı tipik mezofil, həqiqi aerobdurlar, nisbi təmiz torpaqlarda daha geniş yayılma qabiliyyətinə malikdirlər və istənilən texnogen təsir, ilk növbədə neft və neft məhsulları ilə çirklənmə bu cinsə aid göbələklərin yayılmasını ciddi şəkildə məhdudlaşdıran amillər kimi xarakterizə olunur (Balaxanova, 2022: 231). Trichoderma cinsinə mənsub olan göbələklər torpaqəmələgəlmə prosesində aktiv iştirak edir, torpaqda bitki qalıqlarının biokonversiyası və minerallaşması hesabına humusun əmələ gəlməsinə və strukturunun yaxşılaşmasına təsir edir. Trichoderma cinsinin nümayəndələri bioloji nəzarət mexanizminə görə təsərrüfatda geniş istifadə olunur. Bəzi fitopatogen göbələklər bitkilərdə bir sıra xəstəliklər törədir ki, Trichoderma cinsli göbələklər də mikroorqanizmlərin fəaliyyətini zəiflədir. Bundan əlavə, bu cinsə mənsub olan göbələklərin sintez etdiyi ikinci metobalitlər bitkinin böyüməsini stimullaşdırır (Bruns, 2019: 398). Eyni zamanda, bitki kökü və Trichoderma cinsli göbələklər arasındakı əlaqə kökün strukturunun yaxşılaşmasına, əsas və yan köklərin uzanmasına səbəb olur. Tədqiqatlar nəticəsində sübut olunmuşdur ki, bu göbələklər təbii parçalanma və bioremediasiya agentidir. Son işlərin nəticəsində Trichodermanın pestisidləri və herbisidləri təhlükəsizləşdirən qabiliyyəti aşkar edilmişdir. Bu xüsusi qabiliyyət kənd təsərrüfatı sənayesinə çirklənmə ilə bağlı məsələlərin öhdəsindən gəlmək üçün üstünlük verir.

Bütün bunlar göstərir ki, Trichoderma bitki böyüməsini stimullaşdıran, bitki xəstəliklərinin bioloji nəzarət, təbii parçalanma agentidir. Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Trichoderma cinsinə aid olan göbələklərin yüksək antoqonistlik aktivliyə malik olan növləri, eyni

zamanda antibiotik aktivliyə malik birləşmələrdə sintez edə bilir ki, onlardan da T.asperellum və T.harzianum kimi növünə aid ştamların sintez etdikləri güclü antimikrob aktivliyə malikdir.

## Nəticə

Aparılan tədqiqatlardan aydın olmuşdur ki, Trichoderma cinsinə aid göbələklərin bioloji aktivliyi torpaq tipindən, hidrotermiki rejimdən və həmin biotopa xas olan mikobiotanın tərkibindən asılıdır və konkret şəraitdə həmin yerdən ayrılan ştammın istifadəsi daha effektli olur. Bunu nəzərə alaraq tədqiqatların gedişində Trichoderma cinsinə aid göbələk növlərinin antoqonist xüsusiyyətlərinin qiymətləndirilməsi məqsədəuyğun hesab edilmişdir. Tədqiqatların sonrakı mərhələsində Trichoderma cinsinə aid olan göbələklərin boy maddəsi sintez edib etməməsi ilə bağlı olmuşdur.

## Ədəbiyyat


1. Balaxanova, Q. (2021). Müxtəlif antropogen təsirə məruz qalmış biotopların mikobiotasinin say və növ tərkibinə, ekolo-trofiki əlaqələrinə və rastgəlmə tezliyinə görə xarakteristikası. *Azərbaycan Texnologiya Universitetinin "Elmi xəbərlər" məcmuəsi*, № 4/34, 61-66.
2. Balaxanova, Q. (2020). Yaşayış binalarında məskunlaşan göbələklərin törətdiyi patologiyaları və onların sağlamlığa təsiri. *ADPU Xəbərləri*, c.68, № 3, 73-83.
3. Balakhanova, G. (2022). Effects of micromycetes on human health. *Polish journal of science*, № 50, 4-9.
4. Balaxanova, Q. (2022). Müxtəlif çirklənmə mənbələrdə qeydə alınan göbələklərin ekolo-trofik ixtisaslaşmasının təzahür formasına görə xarakteristikası. *Azərbaycan Texnologiya Universitetinin "Elmi xəbərlər" məcmuəsi*, № 1/38, 228-233.
5. Baxşəliyeva, K. (2017). *Azərbaycanda yayılan toksigen göbələklərin ekobioloji xüsusiyyətləri*. B.e.d. dissertasiyasının avtoreferatı.
6. Bruns, T. (2019). The developing relationship between the study of fungal communities and community ecology theory. *Fungal Ecol.*, v.39. 393-402.
7. https://agrohimija.ru/agrohimicheskie-metody/438-opredelenie-gumusa-pochvy-po-metodu-iv-tyurina-chast-1.html
8. https://www.britannica.com/science/soil-organism
9. https://health-ua.com/pics/pdf/ZU_2011_05/46-47.pdf
10. https://www.mycobank.org
11. https://doi.org/10.1038/s41467-019-13164-8
12. Muradov, P. (2021). Eco-trophic Relationships and Frequency of Occurrence of Mycobiota of Some Trees grown on the Roadside: the Case of Baku Highways. *European Online Journal of Natural and Social Sciences*. vol.10, №1, 34-42.


Daxil oldu: 07.06.2024
Baxışa göndərildi: 22.07.2024
Təsdiq edildi: 20.08.2024
Çap olundu: 30.08.2024

# İÇİNDƏKİLƏR

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
## HUMANITIES AND SOCIAL SCIENCES

**Amil Əsgərov**
Naxçıvan musiqi folklorunun özünəməxsus cəhətləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 9
**Şöhrət Məmmədova**
Əli Səmədovun uşaq nağıllarının mətn informasiyası . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 15
**Günay Ələkbərova**
Məhəmməd Tağı Sidqi ədəbi irsində termin yaradıcılığı problemi . . . . . . . . . . . . . . . . . . . . 20
**Nərminə Qədimova**
Qərbi Azərbaycana qayıdış 27
**Əbdülhüseyn Zamanov**
Modernləşən Naxçıvanın sənaye iqtisadiyyatı: tədarük zəncirinə sistemli yanaşma . . . . . . . 32

## TƏBİƏT ELMLƏRİ
## NATURAL SCIENCES

**Qumru Balaxanova**
Trichoderma cinsinə aid göbələk növlərinin antoqonist xüsusiyyətlərinin qiymətləndirilməsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 38

İmzalandı: 27.08.2024
Onlayn çap: 30.08.2024
Formatı: 60/84, 1/8
H/n həcmi: 5,75 ç.v.
Sifariş: 790

---

aem.az saytında çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
"Azərbaycan" nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: info@aem.az